AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

AMEA Milli Azərbaycan Tarixi Muzeyi

“MİRAS” Mədəni İrsin öyrənilməsinə kömək İctimai Birliyi



“Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlarda da çox zəngin və yüksək olmuşdur.”

**Heydər Əliyev**

# AĞSU şəhəri ORTA ƏSRLƏRDƏ

Tarixi-arxeoloji araşdırma

I buraxılış

**Ağsu arxeoloji ekspedisiyasının**
**2010-cu il tədqiqatları**

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, AMEA Milli Azərbaycan Tarixi Muzeyi və "MİRAS" Mədəni İrsin öyrənilməsinə kömək İctimai Birliyinin birgə layihəsi əsasında 2010-cu ilin mart ayında Ağsu orta əsr şəhər yerində arxeoloji tədqiqatlara start verilmişdir.

AĞSU ARXEOLOJİ EKSPEDİSİYASI
2010

ORTA ƏSR
AĞSU
ŞƏHƏRİ

Kitab-albom Ağsu arxeoloji ekspedisiyası tərəfindən nəşrə hazırlanmışdır.

**Nəşrə məsul:** Qafar Cəbiyev
Fariz Xəlilli

**Ağsu arxeoloji ekspedisiyasının tərkibi:**

**Ekspedisiya rəisi:** Qafar Cəbiyev, *tarix elmləri doktoru*

**Ekspedisiya rəisinin müavini:** Fariz Xəlilli, *tarix elmləri namizədi*

**Ekspedisiya üzvləri:** Akif Quliyev, *tarix elmləri namizədi*
Ceyhun Eminli, *tarix elmləri namizədi*
Süleyman Allahverdiyev, *memar*
Elmira Abbasova, *elmi işçi*
Sənan Nemətov, *aspirant*
Xəyalə Kərimova, *böyük laborant*

**Bədii tərtibat:** Səbuhi Hüseynov

# Mündəricat

Ön söz əvəzi........................................................................................................................8

Orta əsr Ağsu şəhərinin tarixinə dair...............................................................................12

Ağsuda arxeoloji tədqiqatlar................................................................................................24

2010-cu ildə Ağsu orta əsr şəhər (Xaraba şəhər) yerində aparılmış arxeoloji qazıntılardan (III sahə) görüntülər........................................................................................................72

Arxeoloji tədqiqatlar nəticəsində tapılmış maddi mədəniyyət nümunələri..............................110



Qafar Cəbiyev
ekspedisiya rəisi
e-mail: q.cebiyev@agsuexpedition.org

# ÖN SÖZ əvəzi

[ «Ağsu şəhəri orta əsrlərdə» kitab-albomu Ağsu arxeoloji ekspedisiyasının 2010-cu ilin mart-aprel ayları ərzində aparmış olduğu tədqiqatların ilkin, həm də yığcam təqdimatıdır. Oxuculara bildirmək istərdim ki, ekspedisiya iki ay ərzində həqiqətən çox intensiv, fəal və məhsuldar işləmişdir. Təsəvvür edin ki, genişmiqyaslı çöl-tədqiqat işləri aparmaqla yanaşı, abidənin planının işlənməsi, onun bərpa eskizinin hazırlanması, qala divarlarının öyrənilməsi, tapıntıların elmi cəhətdən təhlili və araşdırılması, zəruri labarator-kameral işlərin görülməsi, nəhayət, materialların elə isti-isti nəşrə və sərgiyə hazırlanması ilə bağlı bütün qaydalar vaxtında və keyfiyyətlə icra olunmuşdur. ]

Arxeoloji abidələr tariximizi daha dərindən və hərtərəfli öyrənmək üçün ən etibarlı mənbədir. Minnətdarlıq hissi ilə deməliyəm ki, son illər Azərbaycan hökuməti və şəxsən Prezident İlham Əliyev arxeoloji tədqiqatların miqyasının genişləndirilməsi, tarixi-mədəni dəyərlərin mühafizəsi, təbliği və tədqiqi işinə xüsusi diqqət və qayğı göstərir. Arxeoloqlar da öz növbəsində hərtərəfli dövlət qayğısına əməli işlə cavab verirlər. Son illər aşkar edilən və tariximizin bir çox qaranlıq məsələlərinin araşdırılması baxımından son dərəcə mühüm əhəmiyyət kəsb edən nadir abidələr buna bariz nümunədir. Bu mənada Ağsu orta əsr şəhər yerində aparılan arxeoloji tədqiqatların əhəmiyyəti xüsusi olaraq qeyd olunmalıdır.

«Ağsu şəhəri orta əsrlərdə» kitab-albomu Ağsu arxeoloji ekspedisiyasının 2010-cu ilin mart-aprel ayları ərzində aparmış olduğu tədqiqatların ilkin, həm də yığcam təqdimatıdır. Oxuculara bildirmək istərdim ki, ekspedisiya iki ay ərzində həqiqətən çox intensiv, fəal və məhsuldar işləmişdir. Təsəvvür edin ki, genişmiqyaslı çöl-tədqiqat işləri aparmaqla yanaşı, abidənin planının işlənməsi, onun bərpa eskizinin hazırlanması, qala divarlarının öyrənilməsi, tapıntıların elmi cəhətdən təhlili və araşdırılması, zəruri labarator-kameral işlərin görülməsi, nəhayət, materialların elə isti-isti nəşrə və sərgiyə hazırlanması ilə bağlı ekspedisiya üzvləri üzərinə düşən bütün vəzifələr vaxtında və keyfiyyətlə icra olunmuşdur. Arxeoloqlar yaxşı bilirlər ki, iki ay ərzində 600 kvadratmetrlik sahədə qazıntı aparmaq, onun planını işləmək, aşkar olunmuş tikinti və istehsalat ocaqlarını öyrənmək, qeydə alınmış 1000-dən artıq müxtəlif çeşidli maddi mədəniyyət nümunələrini, o cümlədən 400-dən artıq sikkə nümunəsini təmizləmək, fotosunu çəkmək, onları sözün əsil mənasında elmi süzgəcdən keçirmək o qədər də asan iş deyil.

Bəri başdan bildirim ki, Ağsu şəhər yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində həqiqətən elmimiz üçün mühüm əhəmiyyət kəsb edən çox maraqlı tapıntılar əldə olunmuşdur. Təkcə onu deyim ki, şərti olaraq III qazıntı sahəsi adlandırdığımız ərazidə misgərlik, dəmirçilik, boyakarlıq və sümükişləmə sənəti ilə məşğul olan ustalara məxsus bir neçə sənətkarlıq emalatxanası aşkar edilmişdir. Hansı ki, oradan çox nadir daş və metal qəliblər, sikkə zərbi məqsədilə doğranaraq hazırlanmış çoxsaylı mis

lövhələr, Avropa şəhərlərində, o cümlədən Londonda istehsal olunmuş şüşə və çini qab nümunələri tapılmışdır. Azərbaycan ərazisində ilk dəfə olaraq “Lahıc” zərbi olan sikkələr də məhz Ağsuda tapılmışdır.

Bu işlərlə yanaşı, ötən iki ay ərzində, həmçinin Kürdəmir rayonunun Muradxan kəndi ərazisində kanal yeri qazılarkən təsadüfən üzə çıxan və öyrənilmək üçün ekspedisiyaya təhvil verilən 5470 qram çəkisi olan 1133 ədəd gümüş sikkədən ibarət nadir dəfinə də tədqiq olunaraq xüsusi kataloq şəklində (Muradxan dəfinəsi) nəşrə hazırlanmışdır.

Razılıq hissi ilə qeyd etməliyəm ki, bütün bu işlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsi üçün ekspedisiyanın hər bir üzvü maksimum səy göstərmişdir. Ona görə də təqdim olunan kitab-albomun bütövlükdə Ağsu arxeoloji ekspedisiyası üzvlərinin kollektiv əməyinin məhsulu kimi dəyərləndirilməsi daha ədalətli olardı.

Əziz oxucu! Bu Vətən bizimdir. Onun hələ ki, yetərincə öyrənilməyən tarixi də, zəngin mədəni irsi də bizimdir. Bu tarixi biz öyrənməliyik. Əcdadlarımızın bizə əmanət etdiyi zəngin tarixi-mədəni irsi biz qorumalıyıq, biz yaşatmalıyıq. Bunun üçün biz nə etmişik?! Sabah nə etməliyik?! Gəlin, bu barədə düşünək. Unutmayaq ki, doğulduğumuz kənd, sakini olduğumuz rayon təkcə yaydan-yaya gələrək bir aylığa dincəlmək, bulaq başında, çay qırağında kababdan yeyib bəlağətli tostlar demək üçün deyil. Nə olar, bu diyarda doğulan, boya-başa çatan, daha çox doğmaların, yaxınların, həmyerlilərin yardımı, dəstəyi və xeyir-duası ilə pərvazlanaraq ad-san və geniş imkan sahibi olan insanlar heç olmasa arabir dönüb geriyə-doğma kəndə, elə-obaya baxalar, onun tarixinə, mədəniyyətinə, əsrlərin və nəsillərin yadigarı olan abidələrə qayğı və maraq göstərələr. Əgər biz də öz Vətənimiz üçün əlimiz yetəni, gücümz çatanı, imkanımız olanı etmiriksə, onda bütün bunları kim etməlidir?!

Həzrəti peyğəmbərimiz buyurub ki, Vətəni sevmək imandandır. Mərhəba, «Miras» İctimai Birliyinə! Mərhəba, o kəslərə ki, onlar Ağsu tarixinin öyrənilməsində arxeoloq alimlərə dəstək oldular. Onların bu əməli də Vətəni sevməyin bir nümunəsidir.

**Qafar Cəbiyev**
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
Ağsu arxeoloji ekspedisiyasının rəisi,
tarix elmləri doktoru

# orta əsr

## Ağsu şəhərinin tarixinə dair

[

1734-cü ilin yayında Nadir şah öz qoşunu ilə Şamaxıya doğru hərəkət etdi. Şirvan hakimi Surxay xanın Şamaxını tərk etməsinə baxmayaraq, şəhər əhalisi iki ay müddətində müqavimət göstərə bildi. Əhalinin belə ciddi müqavimətindən qəzəblənmiş Nadir şah 1734-cü il avqustun sonla nda Şamaxını ələ keçirdikdən sonra şəhəri yan d araq darmadağın etdi, əhalisinin isə kö çürülməsi əmrini verdi. Beləliklə, 1735-ci il may ayının sonunda Şamaxı şəhərinin 4 ağaclığında (37 km), yeni şəhərin əsası qoyuldu. Şəhərin qədim əhalisi də tikilən bu yeni şəhərə köçürüldü. Bu dövrdən etibarən Ağsu şəhəri Şirvan hakimlərinin iqamətgahı oldu.

]



Fariz Xəlilli
ekspedisiya rəisinin müavini
e-mail: f.khalilli@agsuexpedition.org



Azərbaycanın son orta əsr şəhərləri içərisində əhalisinin sayına və tutduğu ərazinin böyüklüyünə görə fərqlənən Ağsu şəhəri 1735-ci ildən 1806-cı ilədək Şirvanın baş şəhəri olmuşdur. Ağsunun adı tarixi mənbələrdə ilkin olaraq XVI əsrdən etibarən ticarət-sənətkarlıq məntəqəsi kimi xatırlanır.

1734-cü ilin yayında Nadir şah öz qoşunu ilə Şamaxıya doğru hərəkət etdi. Şirvan hakimi Surxay xanın Şamaxını tərk etməsinə baxmayaraq, şəhər əhalisi iki ay müddətində müqavimət göstərə bildi. Əhalinin belə ciddi müqavimətindən qəzəblənmiş Nadir şah 1734-cü il avqustun sonlarında Şamaxını ələ keçirdikdən sonra şəhəri yandıraraq darmadağın etdi, əhalisinin isə köçürülməsi əmrini verdi. Beləliklə, 1735-ci il may ayının sonunda Şamaxı şəhərinin 4 ağaclığında (37 km), yeni şəhərin əsası qoyuldu. Şəhərin qədim əhalisi də tikilən bu yeni şəhərə köçürüldü. Bu dövrdən etibarən Ağsu şəhəri Şirvan hakimlərinin iqamətgahı oldu.

Ağsu şəhərində evlərin alçaq və gildən tikildiyi haqqında məlumat verən son orta əsr müəllifləri burada əlvan ipək parçalar, qızıl və gümüşlə işlənmiş müxtəlif çeşidli malların satıldığı şəhər bazarından da bəhs edirlər. Avropa və rus tacirləri Ağsuya gəlir, qalay, mis, xəz ticarəti edirdilər.

S.A.Yeqizarov Cənubi Qafqazın iqtisadiyyatından bəhs edərkən Ağsu şəhərinin əhalisindən xanlıq dövründə aşağıdakı vergilərin alındığını göstərir:

1. Şəhərdəki iki boyaqxanadan vergi – 5200 manat
2. Tərəzi vergisi – 1500 manat
3. Müharibə vergisi – 1600 manat
4. Gömrük vergisi – 1900 manat
5. At və başqa heyvanların satış vergisi – 900 manat
6. Qab-qacaq satışı vergisi – 160 manat
7. Qırmızı bez satışı vergisi – 220 manat
8. Pambıq satışı vergisi – 300 manat
9. Gön satışı vergisi – 200 manat
10. Boyaq satışı vergisi – 3000 manat
11. Sabun satışı vergisi – 300 manat
12. Şərab satışı vergisi – 230 manat

Ümumilikdə şəhər əhalisindən 15510 manat vergi alınırdı ki, bunun da böyük əksəriyyəti boyaqçılıqla bağlı vergi idi. Bu da Ağsuda boyaqçılığın geniş inkişaf etdiyini göstərir.

Ağa Məhəmməd şah Qacarın yürüşündən iki il sonra Şirvana gələn Biberşteyn Ağsu haqqında yazırdı: “Ağsu şəhərinin sahəsi kvadrat şəklində olub, eni və uzunluğu 800 addımdır. Şəhərin divarları Şərq üslubunda, dairəvi və kvadrat qaydada bürclərlə əhatə edilmişdir. Şəhərin ətrafına çəkilən hasar çiy kərpicdən tikildiyi üçün möhkəm müdafiə səddi hesab olunmur. 1795-ci ildə Ağa Məhəmməd xan Kür çayını keçib, buraya gəlmiş, şəhəri dağıtmışdı”.

Ağsu şəhərində müxtəlif illərdə 5-10 min nəfər əhalinin yaşadığı haqqında mənbələrdə məlumat var. Vadim Leviatov son orta əsr şəhərlərinin əhalisinin sayını müqayisə edərək Ağsu şəhərinin 10 min nəfər sakini ilə bu siyahıya başçılıq etdiyini qeyd edir. Şamaxı əhalisinin böyük əksəriyyətinin Ağsuda yerləşməsi və dağıdıcı ara müharibələrinin şəhərlərin əhalisinin azalmasına səbəb olması belə mənzərəni ortaya çıxarmışdı.

1743-cü ildə Şirvanda Nadir şaha qarşı üsyan başlandı. Bu zaman özlərini Səfəvilərin xələfləri kimi təqdim edən yalançı şahzadələr - I, II, III Sam Mirzələr meydana çıxdı ki, onlardan ikisi Şirvanda fəaliyyət gös - tərirdi.

I Sam Mirzə 50 minlik qoşunla Surxay xanın müşaiyətində Şirvanın mərkəzi olan Ağsu şəhərini zəbt etdi. O, xalqı Nadir şah tərəfindən qoyulmuş vergilərdən azad etdi. Lakin, Nadir şahın oğlu Nəsrullah Mirzə ilə I Sam Mirzə arasında Şirvan düzündə baş verən döyüşdə, I Sam Mirzə öldürüldü.

II Sam Mirzə Surxay xanın oğlu Məhəmməd xanın yardımı ilə 1743-cü ilin oktyabrında Şirvanda güclü üsyanın baş verməsində böyük rol oynadı. Nəsrullah Mirzə 3 dəfə məğlub olmasına baxmayaraq, Ağsu qalasını bir neçə gün mühasirədə saxladıqdan sonra nəhayət top atəşi ilə ələ keçirə bildi. Bununla da çiçəklənən Ağsu şəhərinə ilk zərbə dəymiş oldu. Şəhərdə az sayda insan qalmışdı ki, onların da çoxunu əsir alıb şəhəri tamamilə qarət etdilər. Əhali bu günü "Allahdad" (Allah köməyə çat) adlandırdı.

1747-ci ildə Nadir şahın öldürülməsindən sonra onun Şirvandakı naibi Zərnavalı (Zərnava İsmayıllı rayo- nunda kənddir – F.X.) Hacı Məhəmmədəli Sofu Nəbi oğlu 1748-ci ildə Ağsuda hakimiyyəti ələ keçirdi və Şirvan xanlığını yaratdı. Oturaq əhali onun hakimiyyətini tanıdı. Şirvanda əsas hərbi gücü təşkil edən elat Hacı Məhəmmədəli xanın hakimiyyətini tanımadı. Elat Xançoban mahalından olan, şimalda Altıağacdan cənubda Navahıya qədər ərazinin irsi mülkiyyətçisi qəbul edilən və Sərkar ailəsi adlandırılan Allahverdi bəyin övladlarını söz sahibi hesab edirdi. Allahverdi bəyin gənc övladları Ağası bəy, Məhəmmədsəid bəy və Ağarəzi bəy isə xanlıq titulları olmadığı və tarixi Şirvan dövlətini yenidən dirçəltməyi qarşısına məqsəd qoymuş Şəki xanı Hacı Çələbi xanın siyasi görüşlərini bəyəndikləri üçün onun hakimiyyətini tanıyırdılar. Sərkar ailəsi Şamaxını (Köhnə Şamaxı) iqamətgah



Nadirin şah elan edilməsi.
1736 -cı il. Muğan qurultayı



Qubalı Fətəli xan.
Eyni adlı filmdən kadr.

seçmiş, burada Nadir şah tərəfindən söndürülmüş şəhər həyatını yenidən dirçəltməyə başlamışdı.

1749-cu ildə Əhməd xan Şahsevənin başçılıq etdiyi qoşun Köhnə Şamaxı şəhərinə yaxınlaşdı. Əhməd xan Şahsevənin daha cənubda olan Ağsuya deyil, Şamaxıya hücum etməsi onun Şirvan xanı elan edilmiş Hacı Məhəmmədəli xanı dəstəklədiyini və ona dəstək yürüşü həyata keçirdiyini göstərir. Ağərəzi bəy Əhməd xanın qardaşı Məhəmmədrza xanı üzbəüz döyüşdə öldürdü. Əhməd xan intiqam almaq üçün özü meydana atıldı. Ağərəzi bəy onu bərk yaraladı. Əhməd xan məğlub olub geri qayıtmaq qərarına gəldi. Lakin şəhərin yarım ağaclığında vəfat etdi. Bu döyüşlər zamanı Şəki xanı Hacı Çələbi xan və Qarabağ xanı Pənahəli xan Sərkar ailəsini dəstəkləmiş, hərbi qüvvələri ilə kömək göstərmişdilər.

Sərkar ailəsi faktiki olaraq Şirvan xanı hesab edilən Hacı Məhəmmədəli xanı devirmək və Ağsunu ələ keçirmək istəyirdi. Onlar bu məqsədlərinə çatmaq üçün Şəki xanı Hacı Çələbi xana arxalanırdılar. 1755-ci ildə Hacı Çələbi xan böyük bir qüvvə ilə Ağsuya yaxınlaşdı və şəhəri mühasirəyə aldı. Ağsu uzun müddət mühasirədə qaldı. Hacı Məhəmmədəli xan Quba xanı Hüseynəli xandan kömək istədi. Abbasqulu ağa Bakıxanovun təbirincə desək "3000 nəfər Quba qoşunu və usmi Əmir Həmzənin 500 nəfərlik qüvvəsi iki düşməni barışdırmaq üçün" Ağsuya gəldi. Şirvan-Şəki münasibətlərinə yeni xanın - Hüseynəli xanın qarışmasından Hacı Çələbi xan və Ağərəzi bəy heç də xoşlanmadı. Hacı Çələbi xan Hacı Piri adlı bir nəfəri elçi göndərərək Hüseynəli xanı hədələdi və geri qayıtmağı təklif etdi. Hüseynəli xan geri qayıtmadıqda ağır döyüşlər başlandı. Lakin Hacı Çələbi xanın qüvvələri məğlub olaraq Şəkiyə geri çəkildi. Ağsuda 3 gün Hüseynəli xanın şərəfinə ziyafət verildi. Qalanın açarları ona təqdim edilsə də, qəbul etmədi. Bu, şirvanlılar arasında Hacı Məhəmmədəli xanın dayaqlarının zəif olduğunu və Hüseynəli xanın bunu aydın gördüyünü göstərir. Bu məğlubiyyətdən az sonra Hacı Çələbi xan vəfat etdi. Ağərəzi bəy isə özünə Quba xanlığı timsalında yeni rəqib tapmış oldu.

1758-ci ildə Hüseynəli xan da vəfat etdi.

Ağarəzi bəy Quba xanlığında yaranmış qarışıqlıqlardan istifadə edərək Ağsu məğlubiyyətinin əvəzini çıxmağa cəhd etdi. Quba xanlığının Bərmək mahalına hücum edən və əhalisini qarət edən Ağarəzi bəy 200 ailəni Şirvan xanlığına köçürdü. Hüseynəli xanın oğlu Fətəli xan qisas almaq məqsədilə Şirvan xanlığına hücum etdi. Ağarəzi bəy Köhnə Şamaxının yaxınlığında məğlub edildi və öldürüldü. Fətəli xan Köhnə Şamaxını bir neçə ay mühasirədə saxladıqdan sonra Şirvan elatını qarət etdi və bir hissəsini Quba xanlığına köçürdü.

1763-cü ildə Şirvan xanlığını, xüsusilə Ağsu şəhərini şiddətli taun xəstəliyi bürüdü. Bu xəstəlikdən çox adam tələf oldu.

1765-ci ildə Şirvan elatına arxalanan Sərkar xanədanından Məmmədsəid bəy və Ağası bəy bütün İrana və Azərbaycana sahib olmuş Kərim xan Zənddən xanlıq titulu ilə əlaqədar sənəd aldılar. Məmmədsəid xan və Ağası xan qardaşları Şirvan xanlığının mərkəzi sayılan Ağsu şəhərinə hücum etdilər. Cah-cəlallı dinc həyata üstünlük verən Hacı Məhəmmədəli xanı öldürdülər və bütün Şirvan xanlığına sahib oldular. Xanlığın mərkəzi Ağsudan Şamaxıya köçürüldü. Bölgüyə görə Məmmədsəid xan xanlığın mərkəzini - Şamaxını, Ağası xan isə mahalları idarə edirdi. Şamaxı yenidən abadlaşdırıldı.

1767-ci ildə Quba xanı Fətəli xan Şəki xanı Hüseyn xanla birləşərək iki cəbhədən Şamaxı şəhərinə yaxınlaşdılar. Şəhərin müdafiəsini uzun müddət davam etdirə bilməyən qardaşlar çarəsiz qalıb barışıq üçün düşmənlərinin ordugahlarına getdilər. Lakin Fətəli xan Məmmədsəid xanın, Hüseyn xan isə Ağası xanın gözlərini kor etdi. Fətəli xan Məmmədsəid xanı həbs edərək Dərbəndə göndərdi. Mərkəz Şamaxıdan yenə də Ağsuya köçürüldü. Həm Quba, həm də Şəki xanları tərəfindən iki naib təyin olundu. Şirvan xanlığı iki hissəyə bölündü. Sərdərin və Həsən mahalları Şəki xanlığına, qalan hissələr isə Quba xanlığına çatdı. Ağası xan Kür çayı kənarındakı Kotevan qalasında məskunlaşdı.

Fətəli xan Hüseyn xanın əldə etdiyi Şirvan xanlığı torpaqlarını da Quba xanlığına qatmaq istəyirdi. Odur ki, yenidən bura hücum etdi, Sərdərin və Həsən mahallarını da Quba xanlığına qatdı. 1769-cu ilin iyulunda xanlığın mərkəzi Ağsudan Şamaxıya köçürüldü və şəhər abadlaşdırılmağa başlandı. Bu işin həyata keçirilməsi üçün Fətəli xan 6000 adam ayırmışdı.

1774-cü ildə Ağası xan Fətəli xanla qan düşməni olan Qarabağa gəlmiş Avar xanı Novsal xanla birləşərək Şamaxı şəhərini ələ keçirdi. Fətəli xan Bakı xanı Məlikməhəmməd xanla birlikdə Şamaxı üzərinə hücum etdi. Ağası xan geri çəkildi. Novsal xan isə şəhərin yuxarı hissəsində çıxılmaz və çətin bir sığınacaqda gizləndi. Fətəli xan aman vəd edərək Novsal xanı yanına gətirsə də onu qoruya bilmədi. Novsal xanı və tərəfdarlarını Aqquşalı qanlıları öldürdülər. Buna etiraz olaraq Quba xanlığında vəziyyət qarışdı. Fətəli xan Qubaya qayıtmalı oldu. Bundan istifadə edən Ağası xan yenidən Şirvan xanlığına sahib oldu.

Məmmədsəid xan və Ağası xan Fətəli xana tərəfdar olduqlarını və dostluq etmək

[ ... Ağsu şəhər yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində həqiqətən elmimiz üçün mühüm əhəmiyyət kəsb edən çox maraqlı tapıntılar əldə olunmuşdur. Təkcə onu deyim ki, şərti olaraq III qazıntı sahəsi adlandırdığımız ərazidə misgərlik, dəmirçilik, boyakarlıq və sümükişləmə sənəti ilə məşğul olan ustalara məxsus bir neçə sənətkarlıq emalatxanası aşkar edilmişdir. Hansı ki, oradan çox nadir daş və metal qəliblər, sikkə zərbi məqsədilə doğranaraq hazırlanmış çoxsaylı mis lövhələr, Avropa şəhərlərində, o cümlədən Londonda istehsal olunmuş şüşə və çini qab nümunələri tapılmışdır. Azərbaycan ərazisində ilk dəfə olaraq “Lahıc” zərbi olan sikkələr də məhz Ağsuda tapılmışdır. ]



Akif Quliyev
ekspedisiya üzvü
e-mail: a.quliyev@agsuexpedition.org

istədiklərini bildirdilər. 7 ildən bəri Dərbənddə dustaq olan Məmmədsəid xan azad edildi. Şirvan xanlığının mərkəzi yenidən Ağsuya köçürüldü və Məmmədsəid xan orada oturmağa başladı. Ağası xan isə Əlvənddə otu-rur, buradan mahalları idarə edirdi.

1785-ci ildə Fətəli xan Şəki xanı Məhəmmədhəsən xan və Şirvan xanı Ağası xanla döyüşmək üçün Şirvan xanlığına girmişdi. Qarabağ xanı İbrahimxəlil xandan üz döndərmiş qardaşı Mehralı bəy Fətəli xanın yanında idi. Bir gecə Mehralı bəy Bakı xanlığından Şirvan xanlığına gedərkən yolda Ağası xanın oğlu Əhməd bəylə rastlaşdı, aralarında vuruşma oldu, Mehralı bəy öldürüldü. Fətəli xan onun cənazəsini ehtiramla Qarabağa göndərdi. Bu hadisə İbrahimxəlil xanla Fətəli xanın arasında dostluğa, Ağası xanla düşmənçiliyə gətirib çıxardı. İbrahimxəlil xan və Fətəli xan Ağası xana qarşı birləşdi. Davam gətirə bilməyən Ağası xan məcburən Fətəli xanın hüzuruna gəldi. Ağası xan oğlanları ilə birlikdə həbs edilərək Qubaya göndərildi.

Məmmədsəid xan qardaşının aqibətinin gec-tez onu da haqlayacağını bilirdi. 1787-ci ildə Fətəli xan Ağası xanı Əhməd bəy və Mə - həmməd bəy adlı oğlanları ilə birlikdə hakim təyin etmək bəhanəsilə Qonaqkəndə gətirdi. Məmmədsəid xan Həsən mahalına, oradan Qəbələyə getdi. Fətəli xanı yeznəsi Məhəmmədrza bəy qarşıladı. Fətəli xan Ağası xanı oğlanları ilə birlikdə Bakıya göndərdi. Özü isə Ağsuya gəldi və Məhəmmədrza bəyi Şirvan xanı təyin etdi. Əslində isə hakimiyyət öz əlində idi.

Fətəli xan Məmmədsəid xanı və oğlanlarını, Ağası xanın oğlu Mustafa bəyi Şəki xanı Məhəmmədhəsən xandan istədi. İşlərin xeyrinə olmadığını başa düşən Məmmədsəid xan Fətəli xanın yanına gəlməli oldu. O, dustaq kimi iki oğlu – Mahmud bəy və İsgəndər bəylə Salyana, Məhəmmədrza xan isə Qubaya göndərildi.

Bu hadisələr zamanı Məmmədsəid xanın oğlanları Əsgər bəy və Qasım bəy, Ağası xanın oğlu Mustafa bəy Qarabağa qaçmışdılar. Lakin onlar ələ keçirilmiş və Fətəli xana çatdırılması üçün Şirvan xanlığına göndərilmişdilər. Xan oğulları Göyçay yolu kənarında, Şəki və Şirvan xanlıqlarının sərhəddində Sərkar ailəsinin tərəfdarlarının sayəsində azad olundular. Əsgər bəy, Qasım bəy və Mustafa bəy Cara, oradan Avar xanlığına getdilər. Avar xanı Ümma xanı Şirvan xanlığına əmisi Novsal xanın intiqamını almaq üçün Fətəli xanla döyüşə gətirdilər. Fətəli xan 9 ay Ağsu şəhərində mühasirədə qaldı. Fətəli xanın yanında Ağa Məhəmməd xan Qacarın qardaşı Murtuzaqulu xan Qacar da vardı. O, qardaşından üz döndərmiş, əvvəlcə Bakıya, oradan da mühasirədən iki ay əvvəl Ağsuya gəlmişdi. Fətəli xan öz qızı Pəricahan xanımı və Salyan nahiyəsini Ümma xana verməyə boyun oldu, barışıq əldə edildi. Əsgər bəy, Qasım bəy və Mustafa bəy Qarabağa, oradan Osmanlı Axalkələkinə getməli oldular.

1788-ci ildə Sərkar xanədanına mənsub Məmmədsəid xan iki oğlu (Mahmud bəy və İsgəndər bəy) ilə Salyanda, Ağası xan iki oğlu (Əhməd bəy və Məhəmməd bəy) ilə Bakıda, Məhəmmədrza xan isə Qubada öldü-

rüldü. Ağası xanın övladlarından iki-üç nəfər kor edildi. Həmin il Şəki xanı Məhəmmədhəsən xan Ağsunu mühasirəyə aldı. Hətta Şəki qoşunları Ağsunun bir hissəsinə girdi. Lakin Fətəli xan Quba və Dərbənd qoşunu ilə Məhəmmədhəsən xanı məğlub edə bildi. Məhəmmədhəsən xan Şəkiyə qayıtdı.

1789-cu ildə Fətəli xan şiddətli qızdırmadan vəfat etdi. Hakimiyyətə oğlu Əhməd xan gəldi.

1790-cı ildə Şəki xanı Məhəmmədhəsən xan Quba xanı Əhməd xana qarşı şirvanlılarla birləşdi. Osmanlı dövlətindən Qarabağ xanlığına gəlmiş Əsgər bəy, Qasım bəy və Mustafa bəyi yanına çağıran Məhəmmədhəsən xan Şirvan üzərinə hərəkət etdi. Şirvan xanlığının sabiq xanı Hacı Məhəmmədəli xanın oğlu Manaf bəy də onlara qoşulmuşdu. Əhməd xan müqavimət göstərə bilməyib Qubaya getdi. Məhəmmədhəsən xan Sərkar ailəsini Şirvan mahallarının, Manaf xanı isə Ağsu şəhərinin hakimi təyin etdi. Müxtəlif vasitələrlə Şirvan tacirlərindən və başqalarından çoxlu mal toplayan Məhəmmədhəsən xan Şəkiyə qayıtdı.

Bir həftədən sonra Sərkar ailəsi Ağsunu ələ keçirdi və Manaf xanı öldürdü. Əmiuşaqlarından yaşca böyük olan Əsgər xan hakimiyyətə gəldi. Mustafa bəy Əlvəndə gedərək Qətran qalasında məskunlaşdı.

Məhəmmədhəsən xan Manaf xanı öldürdüklərinə görə Sərkar ailəsindən incimişdi. 1791-ci ildə Şirvan xanlığını ələ keçirmək üçün Şəki xanı Məhəmmədhəsən xan Quba xanı Əhməd xanla birləşdi. Onlara Dağıstanlı ləzgilər də kömək edirdilər. Onlar Ağsu şəhərini mühasirəyə aldılar. Uzunmüddətli mühasirə, şiddətli istilər və ləzgilərə Əsgər xan tərəfindən təklif edilən 5000 tümən qoşunun arasına ayrılıq saldı. Ağsu mühasirədən beləcə azad oldu.

Şirvan əyanları 6 aylıq hakimiyyətindən sonra Əsgər xanı devirdilər və qardaşı Qasım xanı hakimiyyətə gətirdilər. Əsgər xan bir müddət dustaq qaldıqdan sonra Şəkiyə qaçıb gedə bildi. Qasım xan Əlvəndə Mustafa bəylə döyüşmək üçün getsə də, məğlub olaraq geri qayıtdı. Qasım xan verdiyi hökmlərlə təbəqələr arasında fərq qoymurdu. Şirvan əyanları ona görə də Qasım xandan incik düşürdülər. O, şirvanlılara arxalanmaq yerinə Məhəmməd şamxalın oğlu Şahbaz bəyi bir dəstə ləzgi ilə gətirdərək xalqa məsləhət verirdi. Qasım xan bu yollarla hakimiyyəti əlində saxlayacağını və xanlığın asayişini təmin edəcəyini düşünürdü.

1792-ci ildə Şirvan əyanları Hovuz mahalının naibi Yüzbaşı bəy və Sərdərin mahalının naibi Ömər sultanın təklifi ilə Mustafa bəyi Əlvənddən Ağsuya dəvət etdilər. Mustafa xan Şirvan xanı oldu. Qasım xan tərəfdarları ilə Qəbələyə, oradan Quba xanlığına getdi.

Mustafa xan Qazıqumuqlu Surxay xan və Ərəşli Şəhabəddin sultanla Şəki xanı Məhəmmədhəsən xana qarşı birləşdi. Məhəmmədhəsən xan güclü müdafiə olunduğundan xanlar geri qayıtmalı oldular.

1794-cü ildə Məhəmmədhəsən xan, Quba xanı Şeyxəli xan və Şirvan xanlığına iddialı Qasım xan birlikdə Ağsu üzərinə

hücum etdilər. Ağsu bir neçə ay mühasirədə qaldı. Bir gün güclü yağış yağdı və sel çadırların böyük bir hissəsini məhv etdi. Ordunun vəziyyəti pisləşdi. Mühasirə altında olanlar Sərdərin mahalının naibi Ömər sultanın başçılığı ilə mühasirə edənlərə qarşı hücuma keçdilər. Şeyxəli xan və Məhəmmədhəsən xan öz xanlıqlarına qayıtdılar. Qasım xan isə Quba və Şəki arasındakı Qaraburqa dağında məskunlaşdı.

1795-ci ildə Mustafa xan Bakı xanlığının işlərinə qarışmağa başladı. O, Hüseynqulu xanı dəstəkləyirdi. Bakı xanı II Mirzə Məhəmməd xana qarşı Şirvan qoşunu göndərildi. Qoşun neftlə zəngin olan və xanın iqamətgahı yerləşən Balaxanı qalasını ələ keçirdi. II Mirzə Məhəmməd xan Qubaya getdi.

1795-ci ildə Ağa Məhəmməd xan Qacar Muğanın Çehilnam adlı yerində qışladı. Digər xanlar kimi Mustafa xan da məktub və hədiyyələrlə Ağa Məhəmməd xana sədaqətini bildirdi. Lakin Şəki xanı Məhəmmədhəsən xan Mustafa xanı qaralamaq üçün Hacı Seyid bəy adlı elçisini Ağa Məhəmməd xanın yanına göndərdi. Lakin o, Məhəmmədhəsən xanın özündən də şikayət etdi. Mustafa xan Dəvəli sərdar elan edildi və Şirvan xanını cəzalandırmaq üçün göndərildi. Mustafa xan Xançoban obalarını toplayıb Ağsu şəhərini Fit dağına köçürməyi əmr etdi. Yaşayış üçün



Qasım xanın qraf Valeryan Zubov ilə görüşü
1795 -ci il, oktyabr

şəraitin çətinliyi və şiddətli soyuqlar əhalini çətin vəziyyətdə qoydu. Əhalinin bir hissəsi Quba və Dərbəndə getdi. Sərdar Mustafa xan Dəvəli boşaldılmış Ağsu şəhərinə girdi və şəhərdə qalan malları qarət etdi. Buradan Ağdaş mahalına, oradan Xaçmaz mahalına gəldi, Tərkəş kəndində dayandı. Şəki xanı Məhəmmədhəsən xan Səlim ağa tərəfindən devrildiyi üçün o, Sərdar Mustafa xan Dəvəlinin yanına pənah gətirdi. Mustafa xan Dəvəli Məhəmmədhəsən xanın gözlərini çıxardıb, Təbrizə göndərdi. Ağa Məhəmməd xan Qacarın əvvəlcədən əmri belə idi. Bu hadisələr haqqında məlumat almaq üçün Ağa Məhəmməd xan Mustafa xan Dəvəlini yanına çağırdı. Lakin, 200-300 nəfərlik qüvvə ilə cənuba hərəkət edən Mustafa xan Dəvəli yolda Şirvan xanının dəstələrinə rast gəldi. Döyüşdə Sərdar Mustafa xan Dəvəli öldürüldü.

Ağa Məhəmməd xan Qacar qraf Valeryan Zubovun başçılığı ilə Azərbaycana daxil olmuş rus qoşunları ilə döyüşlərə girməkdən çəkinərək İrana qayıtdı. 1795-ci ilin oktyabr ayında qraf Valeryan Zubov Bakıdan Şirvan xanlığına yönəldi. Şirvan xanı Mustafa xan ona tabe olmadı və Ağsu şəhərinin əhalisini yenidən Fit dağına köçürdü. Şirvanın sabiq xanı Qasım xan Hovuz mahalının naibi Yüzbaşı bəyin köməyi ilə Qaraburqa dağından endi və Ağsu şəhərinin yaxınlığında düşərgə salmış qraf Valeryan Zubovun hüzuruna gəldi. Qraf Valeryan Zubov onu Şirvan xanı kimi tanıdı. Rus silahları ilə silahlanmış Qasım xan Mustafa xanı Ağsu şəhərindən uzaqlaşdırdı və Kür çayına tərəf sıxışdırdı. Mustafa xan Qarabağa İbrahimxəlil xanın yanına getdi. İbrahimxəlil xan razı olmasa da, oğlu Məhəmmədhəsən ağa Mustafa xanın tərəfini saxlayırdı.

1796-cı ildə şah elan edilmiş Ağa Məhəmməd xan Qacar Şuşa qalasını və Şirvan xanlığını fəth etmək üçün 100000 nəfərlik ordu ilə hərəkət etdi. O, Əliqulu xanı Şirvana sərdar təyin etdi. Qasım xan ona itaət göstərdi. Qətran istehkamında məskunlaşan Mustafa xan şahın hüzuruna getdi. Bundan qorxuya düşən Qasım xan Şirvandan Şəkiyə qaçdı. Mustafa xan şahın yanında olduğu günlərdə - 1797-ci il iyun ayının 12-də səhər vaxtı saray xidmətçilərindən bir neçə nəfəri şahı öldürdülər.

1799-cu ildə Şirvan xanlığını, xüsusilə Ağsu şəhərini yenidən şiddətli taun xəstəliyi bürüdü. Çoxlu Şirvan sakini tələf oldu.

1806-cı ildə Naibüssəltənə Aslandüz və Qarabağ yolu ilə Şirvan xanlığına hərəkət etdi. Qacar qoşununun keçməsinə mane olmaq üçün Mustafa xanın Kür çayı kənarında yerləşdirdiyi qüvvələri dağıtdı. 6000 ailəyə yaxın Şilyan, Muradxan və s. obaları Muğana köçürdü. Özü Ağsu şəhərinin kənarında düşərgə saldı. Mustafa xan şəhər əhalisini əvvəlcədən əlçatmaz Fit dağa köçürmüşdü. Naibüssəltənə Şirvan xanlığında məqsədinə nail olmayacağını görərək Cənubi Azərbaycana qayıtdı.

1806-cı ildən başlayaraq Ağsu Şirvan xanlığının baş şəhəri kimi əhəmiyyətini itirdi. Getdikcə şəhərin əhalisi azaldı.

# Agsuda arxeoloji tədqiqatlar

[ ... Metalişləmə sənəti ilə bağlı emalatxana yerləri istisna olmaqla digər kvadratlarda ən çox tapılan maddi mədəniyyət nümunəsi dulusçuluq məmulatıdır. Bunlar əsasən şirsiz qablardan, şirli qablardan, qismən də inşaat keramikasından ibarətdir. Şirsiz saxsı məmulatı əsasən iri təsərrüfat küpləri, qazan nümunələri, rəngarəng çeşidli su qabları (səhəng, bardaq, dolça vəs.), süd məhsullarının və emalı saxlanması üçün istifadə olunan qablar (nehrə, sərnic, küpə və s.), habelə çıraqlar, piydanlar və dibçək qabları ilə təmsil olunur. ]

Ceyhun Eminli
ekspedisiya üzvü
e-mail: c.eminli@agsuexpedition.org




Kəndyeri
Uzunboylar
Qaraçıbulaq
Nüydi
Bədbinə
Xəzinədağ
Bilal Əfəndi məscidi
Mehravan
Kəlağayılı
Ağ günbəz
Qırmızı günbəz
Ərəbmehdibəy
Həzrə
Şeyx Əmir Əhməd
Qoç qəbirlər
Ağsu qalası
Şeyx Dursun
Pir Bəxtiyar
Nərgizava
Cavanşir
Xanyurdu
Ağsu
Zəngənə

Yazılı qaynaqlarda Ağsu və ya Yeni Şamaxı kimi xatırlanan, xalq arasında Ağsu qalası və ya Xaraba şəhər kimi tanınan orta əsr Ağsu şəhərinin xarabalıqları indiki Ağsu rayonu ərazisində, Ağsu şəhərindən 4-5 kilometr cənub-şərqdə, Ülgüc, Ərəbuşağı, Ağarx və Curuqlu kəndlərinin əhatəsində yerləşir. Şəhər ərazisi plan etibarı ilə düzbucaqlı formada olmaqla təqribən 34 hektar sahəni əhatə edir. Ətrafı dərin xəndək və val şəklində olan çox möhtəşəm qala divarları ilə möhkəmləndirilib. Şəhərin cənub divarlarının uzunluğu 585, şimal divarlarının uzunluğu 580, şərq divarlarının uzunluğu 580, qərb divarlarının uzunluğu isə 600 metrdir. Qala divarlarının xaric tərəfdən hündürlüyü (xəndək də nəzərə alınmaqla) 6 m-dən çoxdur. Şəhər ətrafı müdafiə divarlarının etibarlığını təmin etmək məqsədilə qala boyunca 3 m dərinliyi və 17 m eni olan xəndək qazılıb. Xəndəyin içərisinin torpağı bütünlüklə qala divarlarının döşünə verilməklə çox möhtəşəm val ucaldı - lıb. Val-divarın üstündə və kənarlarında çay daşından hörgü qalıqları olduğu müşahidə edilir.

Şəhərin cənub-qərb küncündə qala divarı və xəndək əlamətləri müşahidə olunmur. Bu onu göstərir ki, həmin sahədə qala divarlarının tikintisi və xəndəyin çəkilişi yarımçıq qalıb. Yazılı qaynaqlardan bəlli olduğu kimi bir sıra hərbi-siyasi amillərlə əlaqədar Ağsu şəhəri az vaxt içərisində dəfələrlə dağıdılıb, beləliklə də Şirvanın rəsmi paytaxtı olmaq statusu gah Şamaxıya, gah da Fitə keçib.

Ağsu orta əsr şəhər yerinin cənub-qərb və cənub-şərq küncündə qala divarlarından təqribən 10-15 m içəridə hündürlüyü təqribən 10 m, diametri 16-18 m olan iki süni təpə var. Ilk baxışda elə təssürat yarana bilər ki, bu təpələr qala divarlarının künclərdəki bürclərdir. Əslində isə onların qala bürcü olması o qədər də inandırıcı deyil. Nəzərə almaq lazımdır ki, hər iki təpə qalanın qərb və şərq divarlarının cənub divarı ilə birləşdiyi nöqtədən xeyli aralıdadır. Yəni, onların əslində qala divarlarına aidiyyatı yoxdur. Belə olan halda həmin təpələrin müşahidə məntəqəsi olması ehtimalı gündəmə gəlir.

Planından göründüyü kimi, Ağsu şəhəri düzənlik ərazidə yerləşir. Bu səbəbdən də şimal tərəfdən, yəni Ağsu dolayları, yaxud da Göylər istiqamətindən şəhərə doğru hərəkət edən düşmən ordularının manevrlərini asanlıqla izləmək olurdu. Deməli, bu halda şimal tərəfdə müşahidə məntəqəsinə ehtiyac yox idi. Cənub istiqamətdən olan basqın və ya hücumları isə uzaqdan seyr etmək imkanları yoxdur. Bu səbəbdən də cənub istiqamətdəki əraziləri daimi olaraq nəzarətdə saxlamaq baxımından şəhərdə bu cür müşahidə məntəqəsi funksiyası daşıyan təpələrə həqiqətən ehtiyac vardı. Odur ki, qeyd olunan təpələrin şəhərin məhz cənub tərəfində olması faktı bu ehtimal üzərində düşünməyə əsas verir. Başqa sözlə, əgər həmin təpələr bürc olsaydı, onda şimal tərəfdə də bu cür bürclər olmalı idi.

Abidənin ətrafında 4 qəbristan var. Onlar - dan daha yaxşı qalanı şimal istiqamətindədir. Oradakı qəbir daşlarının bir qisminin XVIII əsrin sonlarına aid olduğu bildirilir. Xatirə daşlarının möhtəşəmliyi və onlar üzərindəki qeydlərə əsasən düşünmək olar ki, qəbris-

Şəhər yerindən görüntü
Qala divarı və müşahidə məntəqəsi.

tanda əsasən Şirvan hökmdarları nəslindən olan tanınmış insanlar dəfn olunub.

Ağsu son orta əsr şəhər (Xaraba şəhər) yerində ilkin arxeoloji tədqiqatlar arxeoloq Fazil Osmanovun rəhbərliyi ilə Ağsu-İsmayıllı ekspedisiyası tərəfindən aparılmışdır. Uzun illər Ağsuçay-Girdimançay hövzəsinin əsasən antik dövr və ilk orta əsr abidələrinin arxeoloji tədqiqi ilə məşğul olan ekspedisiya 1983-cü ildə yerli əhali arasında Ağsu qalası, Yeni Şamaxı, yaxud da Xaraba şəhər adı ilə tanınan abidədə iki yerdə yoxlama qazıntısı qoymuşdur. Tədqiqat üçün əvvəlcə şəhər ərazisinin şimal-qərb tərəfində yer seçilmiş və orada 5 x 2 m sahədə mədəni təbəqə öyrənilmişdir. Qarşıya qoyulan suallara cavab tapmaq məqsədilə I sahədən 70 m qərbdə II şurf üçün yer müəyyən edilərək orada 2 x 1 m ölçüdə yoxlama qazıntısı aparılıb. Hər iki sahədə mədəni təbəqə xam torpağadək qazılaraq öyrənilib.

Aparılmış ilkin arxeoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir:

1. Ağsu son orta əsr şəhər yeri (Xaraba şəhər) birtəbəqəli abidədəir. Orada mədəni təbəqənin qalınlığı 1,4-1,6 m-dir. Qazıntı nəticəsində əldə olunmuş maddi mədəniyyət nümunələri, o cümlədən zəngin keramika məmulatı və sikkə nümunələri orada XVIII əsrdə xüsusilə intensiv şəhər həyatı olduğundan xəbər verir. Bununla belə tapıntılar orada XVIII əsrə qədər və XVIII əsrdən sonra da həyat olduğunu təsdiq edir.

2. İlkin tədqiqatlar zamanı aşkar olunmuş rəngarəng çeşidli maddi mədəniyyət nümunələri bir çox xüsusiyyətləri, o cümlədən bədii, bədii-texniki və texnoloji xüsusiyyətləri baxımından Azərbaycanın digər şəhərlərinin materiallarından nəzərəçarpacaq dərəcədə fərqlənir. Bu baxımdan həmin abidənin və oradan aşkar edilmiş maddi mədəniyyət nümunələrinin daha geniş çərçivədə öyrənilməsi bütövlükdə Azərbaycanda son orta əsr şəhər mədəniyyətinin dərindən və əhatəli tədqiqi baxımından xüsusi aktuallıq kəsb edir.

3. Ağsu son orta əsr şəhər yeri Azərbaycanda nadir arxeoloji abidələrdəndir ki, şəhər süqut edəndən sonra onun ərazisində heç bir tikinti, qazıntı və bu qəbildən olan təsərrüfat işləri aparılmayıb. Bu, o deməkdir ki, orada şəhərin tikintiləri, istehsalat ocaqları, küçə və meydanları digər abidələrlə müqayisədə daha yaxşı qalmışdır. Bütün bunlar isə bəhs edilən dövrdə Azərbaycan şəhərlərinin daxili plan quruluşunu, memarlıq xüsusiyyətlərini, abadlıq, sanitariya və su təchizatı məsələlərini, şəhər sənətkarlığının inkişaf səviyyəsini, ayrı-ayrı sənət sahələrində müşahidə olunan inkişaf və tənəzzül meyillərini öyrənmək baxımından son dərəcə mühüm elmi əhəmiyyət kəsb edir. Başqa sözlə, Ağsu (Xaraba şəhər) abidəsi nəinki



Şəhər yerindən görüntülər

[ ... ticarət yolu ilə gətirilmiş mis və dəmir kütləsi məhz bu emalatxanalarda kəsilərək, doğranaraq, döyülərək, əridilərək ondan bazarın tələbatına uyğun olaraq müxtəlif növ məmulat istehsal olunmuşdur. Təbidir ki, istehsal prosesində yaranmış tullantılar-şlaklar da ətrafa atılmışdır. Axtarışlar zamanı çoxsaylı belə nümunələrə rast gəlinmişdir. Xammal kimi nəzərdə tutulan bəzi külçə nümunələrindən isə ümumiyyətlə istifadə olunmamışdır. Xammal kimi istifadə olunmamış qalan metal külçələr çox güman ki, həmin ərazidə istehsal prosesinin bu və ya digər səbəblər ucbatından qəflətən dayanması ilə əlaqədar ola bilərdi. ]

Elmira Abbasova
ekspedisiya üzvü
e-mail: e.abbasova@agsuexpedition.org





Şəhər yerindən görüntülər
"Hamam yeri" adlandırılan iri çökəklik

Azərbaycanda, bütövlükdə Qafqazda son orta əsr şəhər probleminin öyrənilməsi baxımından bir növ etalon ola biləcək abidədir. Bu mənada orada geniş miqyaslı arxeoloji tədqiqatlar aparılmasının vacibliyi hər zaman aktual olaraq qalmaqdadır. Bütün bunlar isə «Miras» İctimai Birliyinin təşəbbüsü ilə 2010-cu ilin mart ayından etibarən orada genişmiqyaslı arxeoloji tədqiqatlara başlanılması üçün əsas oldu.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşlarından ibarət birgə ekspedisiya «Miras» İctimai Birliyinin müraciəti əsasında AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu direktorunun 04 mart 2010-cu il tarixli əmri ilə təşkil olunub.

Ekspedisiya üzvləri 05 mart 2010-cu il tarixdə tam tərkiblə Ağsu rayonuna ezam edilib. Bir gün təşkilati-hazırlıq işləri ilə məşğul olduqdan sonra martın 7-də Ağsu (Xaraba şəhər) son orta əsr şəhər yerində çöl tədqiqat işlərinə başlanılıb.

Ərazi vizual baxımdan bir daha diqqətlə öyrənildikdən, müvafiq müşahidələr aparıldıqdan sonra şimal qala divarlarından təqribən 150 m cənubda, abidənin mərkəz hissəsinə nisbətən yaxın ərazidə qazıntı sa-

həsi üçün yer seçilmiş və həmin sahə şərti olaraq III qazıntı sahəsi adlandırılmışdır.

III qazıntı sahəsi üçün yer seçilərkən hər şeydən öncə ərazinin yerüstü əlamətləri əsas götürüldü. Yəni, həmin sahə ətraf yerlərlə müqayisədə bir qədər fərqli sahə idi. Belə ki, çox yerdə başdan-başa daş töküntüsü ilə müşayyət olunan tikinti qalıqlarından ibarət təpə və çökəkliklərdən, yaxud da yerüstü əlamətləri baxımından mühüm tikinti qalıqlarının olmadığı ehtimalı daha çox olan düzən sahələrdən fərqli olaraq III qazıntı üçün seçilən sahə həm təpə, həm düzən, həm də çökək əraziləri özündə birləşdirir. Bu, isə nəticə etibarı ilə şəhər ərazisindəki fərqli relyeflə müşayət olunan yerlərin irəlicədən təyinatının müəyyənləşdirilməsi baxımından əhəmiyyətli ola bilərdi.

Beləliklə, III qazıntı sahəsi üçün seçilən ərazidə həm təpəlik, həm çökəklik, həm də düzənlik vardı.

Əvvəlcə, şimal-cənub istiqamətində uzunluğu 40 m, eni 5 m və hər birinin sahəsi 25 m2 (5x5m) təşkil edən 200 kvadratmetrlik (40 m x5 m) sahədə işə başlanıldı. Kvadratlar şimaldan cənuba doğru 1-dən 8-dək sıralandı. Daha sonra qazıntı sahəsi şərqə doğru 10 m genişləndirildi. Beləliklə, III qazıntının ümumi sahəsi 600 kvadratmetrə (40 m x15 m), oradakı şərti kvadratların sayı 24-ə çatdırıldı.

Dəfələrlə çox ciddi hərbi əməliyyatlar meydanına çevrilən və dağıntılara məruz qalan Ağsu şəhəri sonuncu dəfə 1806-cı ildə Abbas Mirzənin hücumu ərəfəsində Şirvan xanı Mustafa xan tərəfindən dağıdılıb və bununla da orada şəhər həyatna son qoyulub. Ötən müddət ərzində ərazi təsərrüfat məqsədilə istifadə olunmadığından, orada heç bir qazıntı, tikinti və abadlıq işləri aparılmadığından mədəni təbəqə olduğu kimi qalmışdır. Bu səbəbdən də şəhər ərazisinin istənilən nöqtəsində qazıntı aparılmadan belə tikinti və yol yerləri çox aydın görünür. Odur ki, ilkin qazıntı sahələrində olduğu kimi, III sahədə də mədəni təbəqənin lap üst qatında bir-birinin ardınca çoxsaylı tikinti qalıqları üzə çıxmağa başladı. Bunlar əsasən çay daşından hörülmüş bina qalıqlarıdır. Bu cür tikinti qalıqlarına demək olar ki, bütün kvadratlarda rast gəlinir.

III qazıntı sahəsidə, xüsusən də 6, 7 və 8-ci kvadratlarda elə ilk gündən mədəni təbəqədə çoxlu yanıq izlərinə, habelə metal külçə və şlak qalıqlarına kütləvi şəkildə rast gəlindi. Bunlarla bərabər həmin kvadratlarda bir-birinin yaxınlığında çoxlu ocaq yerləri və yardımçı tikintilərin qalıqları, onların bir qismi - nin içərisində isə ocaq yerləri olduğu müəyyənləşdirildi. 2a, 2b, 7a, 7b, 8a və 8b kvadratlarında isə qazıntıya başlanılan ilk andan nisbətən iri divar qalıqları qeydə alındı.

3a, 3b, 4, 4a, 4b, 6b, 7a, və 7b kvadratlarında geniş sahəni əhatə edən daş döşəmə aşkar olundu. Bunlardan birinin (3b və 4b kvadratlarında qeydə alınan döşəmə) şəhərin əsas küçələrindən birinin qalığı olduğu ehtimal edilir. Eni 4 m-dən çox olan bu küçə şimal-cənub istiqamətindədir. Daha bir nisbətən ensiz küçə şərq-qərb istiqamətində olmaqla 4, 4a və 4b kvadratlarını kəsərək həm şərq, həm də qərb tərəfdə qazıntıdan kənara



Şəhər yerindən görüntülər
Müşahidə məntəqəsi

çıxır. Uzunluğu 15 m-dən artıq olan bu küçə çox güman ki, şəhərin məhəllə daxili yollarından biri olub. Xatırladaq ki, bu yol şərqdə şimal-cənub istiqamətində uzanan əsas küçəyə perpendikulyar istiqamətdədir və 4b kvadratında həmin küçə ilə kəsişir.

6a, 6b və 7b kvadratlarında qeydə alınan və nisbətən geniş sahəni (təqribən 76 m2 ) əhatə edən daş döşəmə də elmi cəhətdən maraq doğurur. 6b və 7b kvadratlarında şərqə doğru qazıntıdan kənara çıxan və deməli daha geniş ərazini tutan bu sahənin şəhər meydanlarından biri olduğu ehtimal olunur. Meydan olduğu güman edilən döşəmənin mərkəz hissəsində iki yerdə quyu-çökəklik qeydə alınıb. Daha doğrusu, həmin sahədə mədəni təbəqənin alt qatında hansısa boşluq olub və sonradan həmin sahə çöküb. Dağılmış vəziyyətdə qeydə alınmış daş töküntülərindən göründüyü kimi meydandan başlayaraq cənub istiqamətində də daş döşəmə ilə örtülmüş yol-küçə olub. 7b və 8b kvadratlarında bu aydın görünür. Lakin sonradan həmin sahədə yol-küçə yeri naməlum səbəblərdən dağıdılıb.

Qazıntı sahəsi şimala doğru genişləndirilərkən daha bir daş döşəmədən ibarət yol yeri 1a kvadratında qeydə alınıb. Həmin yol-

küçə şimal-cənub istiqamətindədir. Şimala doğru qazıntı sahəsindən kənara çıxdığına, cənub tərəfdə isə dağıntıya məruz qaldığından bu yolu tam şəkildə izləmək mümkün olmadı.

III qazıntı sahəsində qeydə alınan bir neçə iri divar qalıqlarının ev-otaq yerləri olduğu şübhə doğurmur. Onlardan biri 6a və 7a kvadratlarında qeydə alınmışdır. Sahəsi 38,7 kvadratmetr olan və şərti olaraq 1№-li otaq kimi qeydə alınan həmin ev – otaq yerinin qərb divarları nisbətən daha yaxşı qalmışdır. Bəzi yerlərdə 8-10 cərgə hündürlüyündə olan bu divarın qalınlığı 105 sm, uzunluğu isə 8,6 m-dir. Ev-otaq yerinin cənub divarları (uzunluğu 4,5 m, qalınlığı 80 sm) da nisbətən yaxşı qalıb. Şərq və şimal divarlar isə nisbətən çox dağılıb. Həmin yerdə qazıntı davam etdirilərkən orada misdən və dəmirdən hazırlanmış əşyalar tapılmışdır. Tapıntılar içərisində bir neçə oymaq və qayçı da olduğunu nəzərə alaraq orada tikiş və ya toxuculuq sənəti ilə məşğul olan sənətkarların yaşadığı və ya işlədiyi ehtimal olunur. Xatırladaq ki, qonşuluqdakı 6-8-ci kvadratlarda da bu qəbildən olan tapıntılara çox təsadüf olunub.

Daha bir otaq yeri 8a kvadratında aşkar edilib və şərti olaraq 2 №-li otaq kimi qeydə alınıb. Onun şimal divarı 1№-li otağın cənub divarına paralel istiqamətdə olmaqla ona bitşik vəziyyətdədir. O da müəyyən edilmişdir ki, 2№-li zaman etibarilə 1№-li ev-otaqdan xeyli sonra tikilib. Başqa sözlə, 1№-li ev-otağın divarları 2 №-li ev-otağa nisbətən daha əzəmətli olmaqla yanaşı, həm də daha dərindir. Sahəsi təqribən 15 kvadratmetr olan 2 №-li ev-otağa nisbətən daha əzəmətli və daha dərindir. 8a kvadratındakı ev-otağın şərq divarı şimal cənub istiqamətində olmaqla 4,2 m uzunluğundadır. Onun qərb divarları bütünlüklə dağılıb, uzunluğu 3,6 m olan cənub divarları isə qismən qalıb.

Həm 1, həm də 2 №-li ev-otaq yerləri təmizlənərkən oradan çoxlu oymaq, qayçı, bıçaq, düymə, məişətdə işlədilən şüşə və saxsı qab nümunələri üzə çıxmışdır. Bu isə onu deməyə əsas verir ki, həmin ev-otaqlardan da əsasən qonşuluqdakı misgər, dəmirçi və boyaq emalatxanalarında çalışan insanlar istifadə etmişlər.



Şəhər yerindən görüntülər
Qalanın şimal hissəsindəki xəndək

[ ... Orta əsr Ağsu şəhər (Xaraba şəhər) yerində tikintilər əsasən çay daşından inşa olunub. Tikintidə birləşdirici material kimi palçıqdan istifadə olunub. Binaların divarlarının bünövrə hissəsi yonulmamış, bünövrədən yuxarı hissəsi isə yonulmuş çay daşından hörülüb. Divarlarda hələ ki, Şirvan memarlıq məktəbi üçün xarakterik olan və antiseysimik funksiya daşıyan ağac kətillərə təsadüf olunmayıb. Görünür, hələlik aşkar edilən bina qalıqları fundamental tikintilərə aid deyil. Adətən, yardımçı binalarda antiseysimik kəmərlərdən istifadə olunmurdu. ]

**Süleyman Allahverdiyev**
ekspedisiya üzvü (memar)
**e-mail:** s.allahverdiyev@agsuexpedition.org



Daha bir nisbətən iri ev-otaq yeri 3a və 3b kvadratlarında aşkar olundu və şərti olaraq 3 №-li ev-otaq kimi qeydə alındı. Həmin tikintinin şimal divarı şərq-qərb istiqamətində olmaqla 6,8 m ona perpendikulyar istiqamətdə olan qərb divarları isə 4,4 m uzunluğundadır. Divarın qalınlığı 1,4 m-dir. Ümumi sahəsi təqribən 30 kvadratmetr olan həmin otağın şərq divarı qazıntıdan kənara çıxıb. Qərb divarı 3a kvadratına düşür. Cənub divar isə 3a və 3b kvadratları boyunca uzanaraq şərqdə qazıntıdan kənara çıxır. Qeyd olunan otağın şimal-qərb küncündə bir ədəd kiçik təndir, onun yanında isə bir ədəd ocaq aşkar edilib. Yaxınlıqda çoxlu gil və yanıq təbəqə qeydə alınıb. Ocaq və təndirdən şərq tərəfdə suvanmış döşəmə qalıqları aşkar olundu. Suvanmış döşəmədən bir qədər şərqdə daha bir ədəd ocaq və bir-birinin yaxınlığında şaquli vəziyyətdə çiyin hissəyə qədər yerə basdırılmış iki ədəd təsərrüfat küpü aşkara çıxarıldı.

5b kvadratının şimal tərəfində 1,1 m dərinlikdə aşkarlanan və yonulmuş iri çay daşlarından səliqə ilə düzülmüş birqat döşəmə-divar qalıqları da diqqəti cəlb edir. Bu, III qazıntı sahəsində tikintidə istifadə olunmuş ən iri daşlardır. Onun divar qalıqları olması ehtimalı o qədər də inandırıcı görünmür. Bu - nunla belə həmin daşların hansı məqsədlə döşəndiyini demək çətindir.

III qazıntı sahəsindəki 5, 6, 7 və 8 saylı kvadratlarda çoxsaylı xırda, yardımçı xarakterli bina qalıqları qeydə alınıb. Yardımçı binalar əsasən kiçik ölçülü quraqlıq, təndirxana və emalatxana tipli binalarından ibarət olduğu güman edilir. Onların əksəriyyəti tək - qat daş divarlardan ibarət tikilib. Bəzilərinin kənarlarında ağac dirəklərin quyuları və ya çürüntüləri qeydə alınıb.

Bunlardan əlavə 3a, 5a ,8b kvadratlarında da daş divarlardan ibarət müxtəlif tikinti-qalıqları üzə çıxarılmışdır. Lakin daha çox üst tikinti qatına aid bu qalıqlar dağılmış vəziyyətdə olduğundan onların quruluşu və ölçüləri barədə fikir söyləmək çətirndir.

Diqqəti cəlb edən ən mühüm məqamlardan birisi də odur ki, öyrənilən sahədə aşkar edilmiş tikinti qalıqları bir çox hallarda bir-birinin üstündə olmaqla biri digərini kəsib. 2, 3, 3a, 5b, 6a, 7a və 8a kvadratlarında qeydə alınmış tikinti qalıqlarının əksəriyyəti bu qəbildəndir. Bu o deməkdir ki, Ağsu şəhər yerində XVIII əsrə və XIX əsrin əvvəllərinə aid olmaqla qalınlığı təqribən 1,4 -1,6 m təşkil edən mədəni təbəqədə ən azı 3 tikinti qatı mövcud olubdur. Bunları ayrı-ayrı tikinti dövrləri kimi də səciyyələndirmək olar.

Məsələn, 3-cü kvadratın cənub tərəfindəki divar qalıqları ən üst qata, orta və şərq tərəfdəki divar qatları ondan altdakı qata, şimal-qərb tərəfdəki divar qalıqları isə 1,4 m dərinlikdə olmaqla daha erkən tikinti dövrünə aiddir. Eyni hal digər kvadratlarda da çox aydın surətdə izlənilir. Bu, əslində məntiqi baxımdan da belə olmalıdır. Yəni, orta əsr şəhərlərində adətən yardımçı funksiya daşıyan binalar (onlar, qıraqlıq, emalatxana, təndirxana və s.) çox da uzun ömürlü olmurdu. Bu mənada təqribən iki əsrədək mövcud olmuş Ağsuda bu tip binaların ən azı bir neçə dəfə yeniləri ilə əvəzlənməsi bir növ zərurət idi. Özü də bu hal daha çox şəhərin sənətkar

emalatxanalarının cəmləşdiyi məhəllələrə aid edilə bilər. Şəhər elitasına aid edilən fundamental tikililər, habelə ictimai binalar barədə isə bunu demək düzgün olmazdı.

III qazıntı sahəsində aşkar olunmuş tikinti qalıqlarının ilkin tədqiqi nəticələrinə əsasən aşağıdakıları bildirmək olar:

1. Orta əsr Ağsu şəhər (Xaraba şəhər) yerində tikintilər əsasən çay daşından inşa olunub. Tikintidə birləşdirici material kimi palçıqdan istifadə olunub. Binaların divarlarının bünövrə hissəsi yonulmamış, bünövrədən yuxarı hissəsi isə yonulmuş çay daşından hörülüb. Divarlarda hələ ki, Şirvan memarlıq məktəbi üçün xarakterik olan və antiseysimik funksiya daşıyan ağac kətillərə təsadüf olunmayıb. Görünür, hələlik aşkar edilən bina qalıqları fundamental tikintilərə aid deyil. Adətən, yardımçı binalarda antiseysimik kəmərlərdən istifadə olunmurdu.

2. III qazıntı sahəsində az miqdar bişmiş kərpic nümunələrinə təsadüf olunmuşdur. Şəhər xarabalıqlarını gəzərkən də bişmiş kərpic qırıqlarına az-az hallarda təsadüf olunur. Rast gəlinən bişmiş kərpiclərdən də əsasən ocaq kənarlarının hörülməsində və döşəmə yerlərində istifadə olunmuşdur. Aşkar edilmiş divarlarda hələlik kərpicdən istifadə olunduğunu təsdiqləyən qalıqlara təsadüf olunmayıb. Tapılan kərpic nümunələrinin əksəriyyəti 22 x 22 x 4 sm-dir.

3. Tikintilərdə ağac materiallarından geniş istifadə olunub. Aşkar edilən dirək yerləri, agac çürüntüləri, kömür qalıqları, xüsusən də müxtəlif formalı və müxtəlif ölçülü dəmir mismarlar bunu bir daha təsdiq edir.

4. III qazıntı sahəsində tədqiqatlar zamanı hələlik bir ədəd də olsun kirəmit qalığına təsadüf olunmayıb. Elə isə oradakı fərdi və ictimai binaların üstü hansı materiala örtülüb? Bu suala cavab tapmaq üçün orada tədqiqatları davam etdirmək tələb olunur.

Yuxarıda artıq qeyd olunduğu kimi, III qazıntı sahəsində aşkar olunmuş tikinti qalıqlarının xeyli hissəsinin yardımçı binalara aid olduğu güman edilir. Bunlar isə daha çox istehsal xarakterli binalardır. Söhbət qıraqlıq, təndirxana, emalatxana və anbar tipli tikililərdən gedir.

III qazıntı sahəsində 1, 2a, 2b, 4, 5 və 5b kvadratlarında çoxsaylı təndir qalıqlarına təsadüf olunmuşdur. Məsələn, 2a və 2b kvadratlarında bir-birinin yanında iki təndir qeydə alınmışdır. Ən iri təndir 4-cü kvadratda (hündürlüyü 1 m, ağzının diametri 1,6 m, gövdəsinin böyük diametri 1,25 m, divarının qalınlığı 0,7 m-dir.) aşkar edilmişdir. Əlçim üsulu ilə tikilmiş bu təndirin içərisindən və ətrafından çoxlu kül və kömür qalıqları təmizlənmişdir. Bu ısə təndirin uzun müddət istifadə olunduğuna dəlalət edir. Görünür, bu cür iri təndirlər bazar üçün məhsul istehsalına xidmət edib. Kiçik ölçülü təndirlərin isə ailələrin gündəlik tələbatına hesablandığı əsla şübhə doğurmur. Bu fikirlər eyni ilə ocaqlara da aid edilə bilər. Xatırladaq ki, III qazıntı sahəsində həm ölçüləri, həm də quruluşu ilə fərqlənən çoxlu ocaq qalıqları aşkar olunub. Əksəriyyəti dağıldığından onların hamısının quruluşu barədə fikir söyləmək çətindir. Bu sözlər daha çox orada aşkar edilmiş emalatxanalar daxilindəki körük tipli

ocaqlara aiddir. Həmin ocaqların ətrafı çay daşı ilə təkqat divar formasında hörülüb. Quruluş etibarı ilə daha çox nalşəkilli ocaqlara rast gəlinir. Həcm etibarı ilə kifayət qədər iri olan bu tip ocaqlar bilavasitə emalatxanalara aid olub. Evlərin daxilindəki və təndirxanalardakı ocaqlar isə quruluş etibarı ilə çox sadədirlər. Onların bir qismi torpaqdan olmaqla dairəvi və ya yarımdairəvi formada tikilərək xüsusi odadavamlı gillə suvanıb. Ocaqların bir qismi sadəcə olaraq üç tərəfdən (yanlardan və arxa tərəflərdən) tili üstə qoyulmuş bişmiş kərpiclərdən qurulub. Həmin ocaqların qarşı tərəfi açıqdır. Adətən, həmin hissədən ocağa odun və ya kömür qoyurdular. 3b kvadratında aşkar edilmiş bu tip ocaqlardan birinin üstü yastı daşla qapanıb.



Qazıntıdan görüntü.
2 saylı otağın daxili

III qazıntı sahəsində aşkar edilən ən mühüm tapıntılar sırasında anbar və sənətkar emalatxanaları xüsusi qeyd olunmalıdır. Məlum olduğu kimi, Azərbaycanın orta əsr şəhərlərində bu qəbildən olan tapıntılara hələlik az təsadüf olunub. Bu baxımdan Ağsu tapıntıları mühüm əhəmiyyət kəsb edir. 6, 7, 8 və 8b kvadratlarında qeydə alınmış tikinti qalıqları ilə yanaşı, oradan tapılmış çoxsaylı maddi mədəniyyət qalıqları da həmin ərazidə bu və ya digər sənət sahələri üzrə ixtisaslaşmış emalatxanaların mövcudluğuna dəlalət edir. Məsələn, 6 və 7-ci kvadratlarda döymə və misgərlik sənətində istifadə olunmuş ocaq-körükxanalar, ituclu metal əşyalar, maqqaş, maşa və qəliblər, hazır və ya yarımfabrikat halında olan məmulat, habelə çoxlu miqdar istehsalat çıxarı orada əsasən misgərlik məmulatları istehsalından xəbər verir. Oradan tapılmış çoxsaylı, həm də müxtəlif forma və müxtəlif ölçülü daş və metal qəliblərdə tökmə üsulu ilə rəngarəng çeşidli nəfis metal məmulatı istehsal olunub. Bu cür qəliblərdən istifadə olunması təbiidir ki, istehsalın yüksək dərəcədə ixtisaslaşdığından və onun kütləvi miqyas aldığından xəbər verir.

7 və 8-ci kvadratlarda daha çox dəmir külçə və şlaklara təsadüf olunmuşdur.8-ci kvadratın cənub-şərq küncündə isə çoxsaylı dəmir şlakların tullandığı çökəklik aşkar edildi. Bu qəbildən olan tapıntıların sayı yüzlərlədir. Bu o deməkdir ki, həmin tapıntıların aşkar edildiyi yerdə uzun müddət, həm də fasiləsiz



Qazıntıdan görüntü.
1 saylı otağın divarı

olaraq dəmirçi emalatxanası fəaliyyət göstərib. Dəmirçixana yerindən, həmçinin çoxsaylı və rəngarəng çeşidli dəmir əşyalar – mismarlar, cəftələr, nallar, halqalar, kəsici alətlər və bu tip əşyalara aid dəstəklər də aşkar edilib.

8b kvadratındakı tikinti qalıqlarının dağınıq vəziyyətdə olması ucbatından plan quruluşunu müəyyən etmək mümkün olmasa da onların istehsalat xarakterli olduğu şübhəsizdir. Oradan tapılmış bir neçə ədəd iri həcmli boyaq küpü bunu deməyə əsas verir. Həmin küplərdən 4-nün içərisində qırmızı və çəhrayı rəng boya olduğu qeydə alınmışdır. Bu isə o deməkdir ki, həmin küplərdə uzun müddət ya toz halında olan boyaq maddləri saxlanılıb, yaxud da onlardan boyaq məhlulu hazırlamaq məqsədilə istifadə olunub. Istənilən halda bu küplər boyaqçı küpləridir. Sadəcə olaraq əgər həmin küplər boyaq maddələrinin saxlanması üçün istifadə edilibsə, onda onların tapıldığı yer anbar kimi, yox, əgər boyaq maddələrinin artıq qarışdırılaraq məhlul halına salınması üçün istifadə olunubsa, onda boyaqçı emalatxanası kimi səciyyələndirilə bilər. Hər halda bu ehtimalların ikisi də eyni dərəcədə inandırıcıdır. Yəni, dəmirçi və misgər emalatxanaları yanında boyaqçı emalatxanasının olması da məntiqi baxım-

[ ... Qazıntıların gedişi zamanı III sahədən zəngin və rəngarəng çeşidli maddi mədəniyyət nümunələri əldə olunmuşdur. Bunlar içərisində bütün sənət növlərinə aid əşyalar vardır. Tapıntıların böyük əksəriyyəti yerli istehsala aiddir. Bununla belə axtarışlar zamanı Azərbaycandan kənar ölkələrdə, bu və ya digər növdən olan məmulat istehsalı üzrə dünya miqyasında məşhur olan şəhərlərdən ticarət və ya mədəni əlaqələr yolu ilə gətirilmiş tapıntılar da əldə olunmuşdur. ]



Xəyalə Kərimova
ekspedisiya üzvü
e-mail: x.kerimova@agsuexpedition.org



dan ağlabatandır. Başqa sözlə, şəhərin digər sənət emalatxanaları haradadırsa, boyaqçı emalatxanasının və ona aid olan anbarın da daha çox məhz orada olduğunu düşünmək gərəkdir.

Yuxarıda deyilənləri ümumiləşdirəsi olsaq belə bir qənaətə gələ bilərik ki, III qazıntı sahəsində aşkara çıxarılan tikinti qalıqları, istehsalat ocaqları, istehsal çıxarları, istehsal alətləri və nəhayət, hazır məmulat nümunələri şəhərin sənətkarlar məhəlləsinin məhz həmin ərazidə yerləşdiyini deməyə əsas verir. Orada aşkar olunan və plan qruluşu etibarilə ev-otaq yerləri kimi səciyyələndirilən bina qalıqlarının da məhz sənətkarlara aid anbar, dükan, ya - xud da yaşayış evləri olduğu şəksizdir.

Qazıntıların gedişi zamanı III sahədən zəngin və rəngarəng çeşidli maddi mədəniyyət nümunələri əldə olunmuşdur. Bunlar içərisində bütün sənət növlərinə aid əşyalar vardır. Tapıntıların böyük əksəriyyəti yerli istehsala aiddir. Bununla belə axtarışlar zamanı Azərbaycandan kənar ölkələrdə, bu və ya digər növdən olan məmulat istehsalı üzrə dünya miqyasında məşhur olan şəhərlərdən ticarət və ya mədəni əlaqələr yolu ilə gətirilmiş tapıntılar da əldə olunmuşdur. Bütün bunlar isə sənətkarlığın, bütövlükdə şəhər əhalisinin mədəni-məişət və təsərrüfat həyatının, habelə kənar ölkələrlə ticarət və mədəni əlaqələrin tədqiqi baxımından son dərəcə mühüm elmi əhəmiyyət kəsb edir.



Qazıntıdan görüntülər.
Daş döşəməli küçə

Ağsu şəhəri (Xaraba şəhər) birtəbəqəli abidə olduğundan oradan tapılmış maddi mədəniyyət nümunələri konkret xronoloji çərçivəni əhatə edir. Bu mənada orada aşkar edilmiş maddi mədəniyyət nümunələri konkret tarixi mərhələyə aid tapıntıların spesifik xüsusiyyətlərinin öyrənilməsi, beləliklə də ayrı-ayrı sənət sahələrinin inkişaf və ya tənəzzül dinamikasının tədqiqi baxımından da mühüm elmi əhəmiyyət kəsb edir.

Tapıntılar içərisində mis və gümüş sikkələr, metal, keramika, şüşə, daş və sümükdən hazırlanmış rəngarəng çeşidli əşyalar və əmək alətləri çoxluq təşkil edir.

**Daş məmulatı.** III qazıntı sahəsindən tapılan maddi mədəniyyət nümunələrinin bir qrupu da daşdan hazırlanmış əşyalardır. Tapıntılar içərisində iki ədəd qəlib var. Forma etibarı ilə bir-birinə bənzəsələr də həcmlərinin müxtəlif olduğuna əsasən onların ayrı-ayrı qəliblərin hissələri olduğu şübhə doğurmur.

Qəliblər səliqə ilə hazırlanıb və ayrı-ayrı hissələrini bir-birinə bənd etmək üçün üzərində bir neçə yerdə deşiklər var.

Tapıntılar içərisində mədən daşından xüsusi olaraq yonularaq kvadrat və ya dairəvi formaya salınmış daş əşyalara kifayət qədər tez-tez təsadüf olunur. Onların bəzilərindən qapaq, bəzilərindən isə üzərində ərzaq, metal və ya gön-dəri məmulatını döyərək tələb olunan formaya salmaq məqsədilə daş lövhələr kimi istifadə olunduğu güman edilir.

Iri ölçülü mədən daşlarından yonularaq qutu formasında hazırlanmış daş əşyanın bərpa olunmuş hissəsinin uzunluğu 63, eni 40, hündürlüyü 30, dərinliyi 19, divarının qalınlığı isə 6-7 sm-dir. Dib hissədə, habelə divarların dibə bitişik hissəsində pas qalıqları var. Xatırladaq ki, bu əşyanın hissələri misgərlik və dəmirçilik emalatxanası olan ərazidən (7 və 8-ci kvadratlar) tapılıb. Bu isə həmin tipdən olan əşyalardan dəmirçi-misgər ustaların istifadə etdiyini düşünməyə əsas verir. Ola bilsin ki, dəmirçi ustalar qızdırılmış metalı soyutmaq məqsədilə içərisinə su doldurulmuş bu cür daş qutulardan istifadə ediblər. Içərisində pas izləri olması da bəhs edilən nümunələrin bilavasitə dəmirçi-ustalara aid olduğundan xəbər verir.

Mədən daşından yonularaq hazırlanmış daha bir ədəd əşya da maraq doğurur. Əşyanın ağız hissəsi düzgün olmayan dairə (böyük diametri 40, kiçik diametri 34 sm) formasındadır. Hündürlüyü 20 sm, yanlara doğru çıxıntısı (10-20 sm) olan bu əşyadan hansı məqsədlər üçün istifadə olunduğunu söyləmək çətindir. Lakin misgər və dəmirçi emalatxanaları olan ərazidən tapılması ondan da sənətkarlıqda istifadə olunduğunu söyləməyə əsas verir.

Emalatxanalar ərazisindən tapılan və içərisi 2-3 sm dərinliyində yonulmaqla hazırlanan dayaz vannayabənzər əşyalar da çox güman ki, sənətkarların istifadəsi üçündür. Ehtimal ki, bu qəbildən olan daş vannalar metal ərintilərindən xüsusi dəmir və ya mis lövhələr hazırlamaq üçün istifadə olunub.

Ağsu orta əsr şəhər yerində tikinti, abadlıq və quruculuq işlərində inşaat materialı kimi daşdan geniş miqyasda istifadə olunub. Binaların demək olar ki, hamısının

bünövrədən yuxarı hissəsi yonulmuş çay daşından tikilib.

Tikintidə istifadə olunan daşların bir qayda olaraq uc tərəfi kəsilib-yonulub. Divarın içərisində qalan tərəfi kəsməyə-yonmağa isə lüzum olmayıb. Yalnız bəzi daşlar vardır ki, onların bütün tərəfləri yonulub. Bu daşlardan adətən binalarda künc daşı kimi istifadə olunurdu. Çay daşlarının bütün tərəflərini yonmaq çətin olduğundan əksər hallarda künc daşı kimi mədən daşlarından istifadə olunurdu. Bəzi daşların isə üç tərəfi səliqə ilə yonulsa da, arxa tərəfi üçbucaq halında işlənib. Bu da əlbəttə ki, onları tikintidə daha etibarlı şəkildə bağlamaq məqsədinə xidmət edirdi.

Məlumat üçün onu da bildirək ki, nəinki Ağsu, hətta ətraf rayonların sakinləri də əsrlər boyudur ki, Ağsu və Girdiman çaylarının zəngin daş və çınqıl ehtiyatlarından istifadə edirlər. Orta əsr şəhər yerində aşkar edilmiş tikintilərdə də elə həmin çayların daş ehtiyatlarından istifadə olunubdur.

Daşişləmə sənəti ilə xüsusi ustalar - bənnalar məşğul olurdu. Arxeoloji tədqiqatlar zamanı III qazıntı sahəsindəki 5a kvadratında daş ustaları tərəfindən çapılmış çoxlu miqdar qəlpələrdən ibarət topa aşkar edilib.

Bir qrup daş ustaları isə oyma sənəti üzrə ixtisaslaşmışdı. Onlar yumuşaq tərkibli mədən daşlarından müxtəlif fiqurlar, memarlıq elementləri, qəbir və xatirə daşları hazırlayırdılar.

**Metal məmulatı.** Tədqiqatların gedişi zamanı bu qəbildən olan tapıntılara tez-tez təsadüf olunub. Misgərlik, döymə işi və dəmirçilik məmulatları istehsalı üzrə ixtisaslaşmış emalatxanaların fəaliyyət göstərdiyi sahədə (6, 7 və 8-ci kvadralarda) çoxlu miqdar metal külçə və şlak nümunələri qeydə alınıb. Bu, o deməkdir ki, ticarət yolu ilə gətirilmiş mis və dəmir kütləsi məhz bu emalatxanalarda kəsilərək, doğranaraq, döyülərək, əridilərək ondan bazarın tələbatına uyğun olaraq müxtəlif növ məmulat istehsal olunmuşdur. Təbidir ki, istehsal prosesində yaranmış tullantılar-şlaklar da ətrafa atılmışdır. Axtarışlar zamanı çoxsaylı belə nümunələrə rast gəlinmişdir. Xammal kimi nəzərdə tutulan bəzi külçə nümunələrindən isə ümumiyyətlə istifadə olunmamışdır. Xammal kimi istifadə olunmamış qalan metal külçələr çox güman ki, həmin ərazidə istehsal prosesinin bu və ya digər səbəblər ucbatından qəflətən dayanması ilə əlaqədar ola bilərdi.

III qazıntı sahəsindən tapılan dəmir əşyalar içərisində bıçaq, çapacaq, mismar, cəftə, halqa, zəncir, nal tipli əşyalar çoxluq təşkil edir. Xüsusilə də misgərlik emalatxanası olan ərazidən çoxsaylı bıçaq tiyəsi və dəstəyi tapılmışdır. Bunlar həm ölçülərinə, həm də formalarına görə bir-birindən fərqlənirlər. Eyni sözləri nallar, mismarlar və digər kəsici alətlər barəsində də demək olar.

Metal tapıntılar içərisində bir neçə ədəd müxtəlif ölçülü və müxtəlif formalı qəlib də elmi cəhətdən maraq doğurur. Həmin qəliblərdən biri nisbətən daha iridir. Onun içərisində ərəb əlifbası ilə işlənmiş yazı olduğu ehtimal edilir. Həcmcə kiçik olan iki ədəd qəlibdən konkret olaraq hansı məqsədlə istifadə olunduğu hələ ki, müəyyənləşdirilməyib.



Qazıntı prosesindən görüntülər.
İri təndirin ölçüləri götürülür.

Dəmirdən hazırlanmış məişət əşyaları içərisində qulaqvari qulpu olan bir ədəd qalın divarlı qazan da elmi cəhətdən maraq doğuran tapıntılardandır.

Misdən hazırlanmış tapıntılar əsasən məişət əşyalarından və bəzək nümunələrindən ibarətdir. Məişət əşyaları sırasında ən çox təsadüf olunan əşya mis oymaqlardır. III qazıntı sahəsindən on ədədə qədər belə oymaq tapılıb. Maraqlıdır ki, onların əksəriyyəti misgərlik emalatxanası və onun ətrafında aşkar edilib. Bu, o deməkdir ki, həmin oymaqlar elə oradaca istehsal olunub. Tapıntılar içərisində misdən hazırlanmış üzük və asma bəzək əşyalar da çoxluq təşkil edir. Misdən hazırlanmış tərəzi gözü, qaşıq, toqqa, düymə, maşa və maqqaşa bənzər əşyalar, bir çoxunun üzərində döymə üsulu ilə işlənmiş şəbəkə formasında təsvirləri olan lövhələrə də tez-tez təsadüf olunur. Misdən sim topası və boru formasında olan əşyalar da diqqəti cəlb edir. Üzərində döymə üsulu ilə insan təsviri işlənmiş buta formalı mis əşya xüsusi maraq doğurur. Ehtimal olunur ki, təsviri verilən insan şəhərin müdafiəsində fərqlənmiş döyüşçülərdən biridir.

Tapıntılar içərisində gümüşdən hazırlanmış bir neçə bəzək əşyası da var. Onlardan





# arxeoloji ekspedisiyasının işçi qrupu

Məlum olduğu kimi, Azərbaycanın orta əsr şəhərlərindən tapılan fayans məmulatının əksəriyyəti Şərq ölkələrindən gətirilmiş nümunələrdir. Bu cəhətdən Iranın Rey, Kaşan, Sultaniyyə şəhərlərində istehsal olunmuş nümunələr xüsusilə çoxluq təşkil edir. Ağsu şəhər yerində aparılan qazıntılar zamanı da belə nümunələrə təsadüf olunub. Məlum olduğu kimi, həmin məmulat Azərbaycana ticarət və ya mədəni əlaqələr yolu ilə daxil olmuşdur. Diqqəti çəkən mühüm məqamlardan biri budur ki, Ağsuda tapılan və çox ciddi istehsalat qüsurları ilə müşaiyət olunan fayans məmulatı nümunələrinin xarici ölkələrdən gətirildiyini düşünmək əsla düzgün olmazdı. Fikrimizcə, bu cür nümunələrin bilavasitə yerli istehsal məhsulu olduğu əsla şübhə doğurmur.



III qazıntı sahəsi

biri əqiqdən qaşı olan üzükdür. Uzüyün qaşı üzərində ərəb dilində «Məhəmməd Əli Fatimə Həsən Hüseyn» sözləri yazılıb. Gümüşdən hazırlanmış zəncir qolbaq da maraqlı tapıntılardandır.

Dulusçuluq məmulatı. Metalişləmə sənəti ilə bağlı emalatxana yerləri istisna olmaqla digər kvadratlarda ən çox tapılan maddi mədəniyyət nümunəsi dulusçuluq məmulatıdır. Bunlar əsasən şirsiz qablardan, şirli qablardan, qismən də inşaat keramikasından ibarətdir. Şirsiz saxsı məmulatı əsasən iri təsərrüfat küpləri, qazan nümunələri, rəngarəng çeşidli su qabları (səhəng, bardaq, dolça vəs.), süd məhsullarının və emalı saxlanması üçün istifadə olunan qablar (nehrə, sərnic, küpə və s.), habelə çıraqlar, piydanlar və dibçək qabları ilə təmsil olunur. Bu nümunələrin əksəriyyəti həm texnoloji xüsusiyyətləri, həm də ənənəvi formalarda baş verən dəyişiklikləri baxımından əvvəlki əsrlərə aid analoji nümunələrdən hiss olunacaq dərəcədə fərqlənir. Məsələn, həcmcə iri olan təsərrüfat küplərinin sayca azaldığı, əksinə kiçik və orta həcmli küplərin artdığı müşahidə olunur. Bu qəbildən olan saxsı qabların gili qatışıqlardan demək olar ki, təmizlənməyib. Küplər ayrı-ayrı hissələrdən ibarət olmaqla dulus dəzgahında hazırlanıb. Calaq edilmiş hissələrin üzərinə ziqzaqvari formada kəmərlər vurulub. Küplərin özü də, onların üzərinə vurulmuş kəmərlər də texniki və texnoloji baxımdan kobud icra edilib. Hazırlandıqdan sonra demək olar ki, heç birinin üzərinə sığal çəkilməyib. Təsərrüfat küplərinin bişirilməsi də keyfiyyətlə icra olunmayıb. Bu səbəbdəndir ki, onların içərisində çoxlu miqdar lazımınca bişməyən nümunələr var. Onların hamısı sarı rəngdədir. Saxsıları asanlıqla ovulub tökülür. Küplərdən bəziləri isə bişirilərkən kürədəki temperatur rejiminə lazımınca nəzarət olunmadığından yanıb ötmüşdür. Elə nümunələr də vardır ki, onların bəzi hissəsi yanıb ötsə də, bəzi hissələri yetərincə bişməyib. Bu da ondan irəli gəlir ki, məmulatın bişirilmək məqsədilə kürəyə

qablaşdırılması işi bişmə prosesinin incəliklərindən xəbərsiz olan naşı şəxslər tərəfindən icra olunub.

III qazıntı sahəsində qeydə alınmış boyaqçı küplərindən biri bərpa edilmişdir. Onun ölçüləri belədir: hündürlüyü 85 sm, ağzının diametri 24 sm, gövdəsinin böyük diametri 51 sm, oturacağının diametri 13 sm, ağzının kənara qatlanan hissəsinin qalınlığı 3 sm, divarlarının qalınlığı 1 sm-dir. Üzərində bir-birindən təqribən 10 sm aralıda yapma üsulu ilə vurulmuş ziqzaqvari kəməri var. Bu kəmərlər zahirən naxış təsiri bağışlasa da, əslində bir-birinə calaq edilmiş ayrı-ayrı hissələrin möhkəmliyinə xidmət edir.

Digər boyaqçı küpləri də forma və ölçülərinə görə təsviri verilən küpdən az fərqlənir və onların fraqmentləri daha çox 3a, 3b, 4b və 8b kvadratlarında qeydə alınmışdır. Maraqlıdır ki, 3a kvadratında qeydə alınmış 10-a qədər kiçik həcmli sınıq küpün hamısı başı aşağı çevrilmiş vəziyyətdə qeydə alınıb. 2b kvadratında isə təndirlərə yaxın ərazilərdə nisbətən iri həcmli küplərə məxsus fraqmentlər tapılmışdır. 8b kvadratında bir-birinin yaxınlığında şaquli istiqamətdə yerə basdırılmış iri təsərrüfat küplərindən ibarət anbar aşkar edilib. Həmin küplərdən 4-nün içərisində boyaq izləri qeydə alınıb. Daha doğrusu, küplərdən birində qırmızı, üçündə isə çəhrayı rəngli boya olub.

Aşkar edilmiş təsərrüfat küplərindən birisi üzərində sınmış və ya çat vermiş hissələrin təmir izləri var. Bu məqsədlə sınmış hissələr bir neçə yerdən deşilərək iplə bir-birinə bənd edilmiş, daha sonra üzəri kirəc məhlulu ilə üzlənmişdir. Xatırladaq ki, bu cür təmir izlərinə digər növdən olan saxsı qablar içərisində də tez-tez təsadüf olunur.

Su qabları. Tədqiqatlar zamanı nisbətən daha çox təsadüf olunan nümunələrdir. Bunlar əsasən səhəng, bardaq və dolça tipli qablardır. Onlar da forma və həcm etibarı ilə müxtlifdirlər. Məsələn, səhəng tipli qablar XVI-XVII əsrlər üçün səciyəvi hesab edilən analoji nümunələrdən xeyli dərəcədə fərqlənirlər. Bu cür fərqlilik əsasən də səhəng tipli qabların qulp, boğaz və ağız hissələrinin formasında özünü göstərir. Orta hissədə uzununa qabarıq zehi olan lentvari, daha doğrusu



Qazıntı prosesindən görüntülər

qabırğaya bənzər qulplar qabın çiyin və boğaz hissələrini birləşdirir. Səhənglərin boğazı çiyin hissədən başlayaraq yuxarıya doğru tədricən daralaraq qabın ağzının kənarında 3-3,5 sm enində sağanaqvari sonluqla tamamlanır. Səhəng tipli qabların demək olar ki, hamısının saxsısı bozumtul rəngdədir. Bu da onların gilinin lazımınca bişmədiyindən irəli gəlir. Elə bu səbəbdən də səhənglərin saxsısı olduqca kövrəkdir. III qazıntıdan tapılan bu tip qabların əksəriyyətinin gövdə hıssəsinin sınaraq xırda hissələrə parçalanması da elə bu səbəbdəndir.

Etnoqrafik müşahidələr göstərir ki. Azərbaycan ailələrində əsrlər boyu səhəng tipli qablardan əsasən ıçməli suyun gətirilməsi və saxlanılması məqsədilə istifadə olunub. Elə indinin özündə də Azərbaycanın bir çox yaşayış məntəqələrində qadın və qızlar bu tip qablar vasitəsilə yaxınlıqdakı çay və bulaqlardan əsasən çay dəmləmək məqsədilə ıçməli su gətirirlər. Ailələrin tərkibindən asılı olaraq hər evdə orta hesabla 2-5 səhəng saxlanılırdı. Daimi olaraq istifadə edildiyindən bu tip qabların sındırılmaq ehtimalı da yüksək idi. Səhəng tipli qablara məxsus fraqmentlərə hər yerdə, həm də kifayət qədər tez-tez təsadüf olunması da elə bu amillə izah olunmalıdır.

Orta əsrlər dövründə əhalinin gündəlik istifadə etdiyi su qabları içərisində bardaq tipli saxsı qablar üstünlük təşkıl edirdı. Ağsu qazıntıları zamanı əldə edilmiş çoxsaylı nümunələr onu göstərir ki, gildən hazırlanmış müxtəlif formalı və müxtəlif ölçülü bardaqlar XVIII əsrdə də əhalinin gündəlik məişətində çox mühüm yer tutmaqda davam edib. Tapılan bardaq tipli qabların demək olar ki, hamısı darboğazlıdır. Nisbətən iri həcmli bardaqlar formaca səhənglərə bənzəyir. Yəni, onlar kiçik həcmli səhənglərdən az fərqlənirlər. Fərqləndirici xüsusiyyətlərindən birisi onların ağzının kənarının bir qədər genələrək qıfvari formada olmasıdır.

Səhənglər kimi bardaq tipli qabların da gili bir qayda olaraq müxtəlif qatışıqlardan diqqətlə təmizlənmiş, ələnmiş, palçığı həll qarışdırılmış, qabın gövdə hissəsi dulus dəzgahında hazırlandıqdan sonra əllə formalaşdırılmış qulp ona bərkidilmişdir. Səhənglərdə olduğu kimi, bardaqlarda da qulp qabın çiyin və boğaz hissələrini birləşdirir. Gili lazımı dərəcədə bişmədiyindən saxsısı tamılmış əksər nümunələr bozumtul rəngdədir.

Tapıntılar içərisində lüləkli bardaqlar da vardır. 4a kvadratından tapılan (inv. № - 145) bir ədəd bu tip bardağın ölçüləri belədir: hündürlüyü 25,5, oturacağının diametri 8, ağzının diametri 4,5, gövdəsinin diametri 14 sm-dir.

Diqqəti cəlb edən məqamlardan birisi də odur ki, bu tip qabların bir çoxunun səthinə sığal çəkilməyib. Bu səbəbdən də qabların qulupunun bərkidildiyi, xüsusən də oturacağa yaxın hissələrində təmizlənməmiş gil qəlpəcikləri qalıb.

Maraqlıdır ki, III sahədə aparılmış qazıntılar zamanı hələlik XIV-XVII əsrlər keramikası üçün səciyyəvi olan enliboğaz bardaq nümunələrinə təsadüf olunmayıb.

Etnoqrafik müşahidələr göstərir ki, yerli əhali bardaq tipli qablardan əsrlər boyu həm


M1
M1
A



Qazıntı sahəsində iş
Yeni bina açılarkən

məişətdə, həm də çöl işlərində geniş istifadə edibdir. Məişətdə bu tip qablardan əsasən süfrəyə su, şərbət, və digər mayelər vermək üçün, çöl işlərində isə tarlaya, bağa, bostana gedən insanlar su qabı kimi edirlər.

Tapıntılar içərisində aftafa tipli qablra aid bir neçə lülək də var. Etnoqrafik müşahidələr, habelə XIV-XVII əsrlərə aid tapıntılar göstərir ki, afta tipli qablar həcmi,habelə gövdəsi, boğazı, qulpu və ağzının forması etibarı ilə darboğazlı bardaqlardan demək olar ki, fərqlənmir.

Tədqiqatlar zamanı tapılmış müxtəlif həcmli enliboğaz saxsı qablardan digər məqsədlərlə yanaşı, su qabı kimi istifadə olunduğu da şübhə doğurmur. Nazik divarlı bəzi fraqmentlərin isə dolça tipli qablara aid olduğu ehtimal edilir.

III qazıntı sahədən tapılmış şirsiz saxsı qablara aid fraqmentləərin bir qismi onlardan süd məhsullarının emalı və saxlanması məqsədilə istifadə olunduğunu ehtimal etməyə əsas verir. Bu nümunələr içərisində küpə, nehrə, dopu və sərnic tipli qablar xüsusilə çoxluq təşkil edir. Həmin fraqmentlərin məhz hansı qaba aid olduğu daha çox onların etnoqrafik pralellərinin ağız, boğaz və çiyin hissələrinin forma və quruluşu əsasında müəyyən edilir. Məsələn, yağ emalı üçün nəzərdə tutulan nehrə tipli qablar nisbətən enli

boğaza malik olmaqla ağızları kərt formasında kənara doğru qatlanmış vəziyyətdədir. Bu da onların ağzını sələ ilə kip bağlamağa imkan verir.

III qazıntı sahədən bir neçə ədəd nehrə fraqmenti götrüldü (inv. №-14, 42, 68, 118 və s.). Onların ağzının diametri 12-13 sm, oturacağının diametri 8-9 sm təşkil edir.

Etnoqrafik müşahidələr göstərir ki, adətən süd sərniclərə sağılır, qazanlarda qaynadılır, küpə və bərnilərdə mayalanır, tabaq tipli qablarda qaymaq qoyulur, nehrələrdə isə çalxalanaraq yağ hasil edilir.

Qazan və qapaqlar. Tədqiqatlar zamanı III qazıntı sahədə qazan tipli qablara aid saxsı qab nümunələrinə nisbətən az təsadüf olunub. Bu da XVIII əsrdə dəmir və mis qazanların saxsı qazanları məişətdən getdikcə daha artıq sıxışdırıb çıxardığından xəbər verir. Nəzərə almaq lazımdır ki, daimi olaraq ocaq üzərində yüksək temperatur altında qızdırıldığından gil qazanlar tez-tez parçalanaraq sıradan çıxırdı. Təbiidir ki, digər növlərdən olan saxsı qablar barəsində bunu demək olmaz. Ona görə də ilkin olaraq məhz qazan tipli qabların metal əşyalar tərəfindən sıxışdırılaraq məişətdən kənarlaşdırılması başadüşüləndir.

Ağsu şəhər yerindən tapılan gil qazan nümunələri əsasən üçbucaqvari və ya qulaqvari qulpa malikdir. Tapıntılar içərisində lüləkli qazanlara aid fraqmentlərə də təsadüf olunur. Onların hamısının gili coddur. Çox istifadə olunduğundan divarları yanaraq hisdən qaralıb.

Şirsiz saxsı məmulatı içərisində bir ədəd silbic də var. Ağzının kənarları çöl tərəfə doğru geniş açılmış vəziyyətdə olan bu əşyanın ölçüləri belədir: hündürlüyü 19, ağzının diametri 13,5, oturacağının diametri 8 sm-dir. Bu tip əşyalardan adətən körpə uşaqların beşiyində sanitariya-gigieena məqsədilə istifadə olunub.

Şirsiz saxsı məmulatı nümunələri içərisində müxtəlif formalı çıraqlara və onların fraqmentlərinə də tez-tez təsadüf olunur. Bunlar isə piydanlardan və lüləkli çıraqlardan ibarətdtr.

Piydanlar. III qazıntı sahədə 20-dək bu cür nümunə tapılıb. Onlar içərisində həm nisbətən iri, həm də kiçik həcmli nümunələr var. Ümumilikdə isə bu əşyaların əvvəlki əsrlərə aid analoji nümunələrlə müqayisədə həcmcə nisbətən iri və texnoloji baxımdan kobud hazırlandığı diqqəti cəlb edir.

Piydanlar dulusçu ustalar tərəfindən alt kasa, üst kasa, onları birləşdirən oxdan və qulpdan ibarət ayrı-ayrılıqda hazırlanaraq sonradan birləşdirilir. Bunlar arxeoloji ədəbiyyatda əksər müəlliflər tərəfindən vazayabənzər çıraq kimi təqdim olunur. Bu da onlardan işıqlandırma məqsədilə istifadə olunması ilə bağlıdır. Piydanların üst kasasına adətən piy və ya yağ tökərək yandırırdılar. Üst kasanıın kənarında pilitə yerləşdirmək üçün xüsusi novçayabənzər çıxıntı var. Bu tip qabların qulpu en kəsiyi çubuqvari formada olmaqla alt kasanın kənarı ilə üst kasanın çiyin hissəsini birləşdirir.

Piydanların təqribi ölçüləri belədir: alt kasanın diametri 8-12 sm, üst kasanın diametri 5-7, birləşdirici oxun uzunluğu 3,5-4,5, qabın ümumi hündürlüyü 6-8 sm-dir.

Maraqlıdır ki, qazıntıların gedişi zamanı bir neçə ədəd şirli piydana da təsadüf olunub. Həmin nümunələrin səthi yaşıl və ya firuzəyi şirlə saya örtülüb.

Tədqiqatlar göstərir ki, piydanlardan istifadə ənənəsi XVIII əsrdə davam etsə də, əhalinin geniş təbəqələri işıqlandırma vasitəsi olaraq daha çox lüləkli çıraqlardan istifadə edib. III qazıntı sahəsinin demək olar ki, bütün kvadratlarında bu cür nümunələrə və onların fraqmentlərinə kifayət qədər tez-tez təsadüf olunub. Bu çıraqlar da əvəlki əsrlərə aid nümunələrlə müqayisədə həcmcə hisolunacaq dərəcədə iri olanları ilə diqəti cəlb edir. Onlar həcm və forma etibarı ilə daha çox XIX-XX əsrlər də geniş yayılan «qara çıraq»lara bənzəyir.

Ağsudan məlum olan lüləkli çıraqları fərqləndirən əsas əlamətləri lüləklərinin iri, dar və nisbətən qısa boğazı, enli-qıfvari və ya sağanaqvari ağzı, lüləklə müqayisədə nisbətən kiçik konusvari gövdəyə, çiyin və boğaz hissəsini birləşdirən çubuqvari qulpa malik olmalırı. Əksəriyyətinin lüləyi və gövdəsinin bir hissəsi yanaraq hisdən qaralıb. Bu da onların uzun müddət istifadə olmadığına dəlalət edir.

4b kvadratından tamılmış iri lüləkli çırağın ölçüləri belədir: hündürlüyü 11, ağzının diametri 4,5 sm-dir. 1a kvadratından tapılan lüləkli çırağın (hündürlüyü 12, oturacağının diametri 7 sm) lüləyi bütövlüklə yanaraq hisdən qaralıb. 3b kvadratından aşkar olunmuş daha bir ədəd iri lüləkli çırağın hündürlüyü 13,5, oturacağının diametri 7,5, ağzının dia - metri 4 sm-dir.

Dibçək qabları. Ağsu şəhər yerindən tapılan şirsiz qabların bir qismindən dibçək qabı kimi istifadə olunduğu ehtimal olunur. Bu qablar geniş ağıza, çox da hündür olmayan gövdəyə malikdir. Divarları yuxarı-qabın ağzına doğru tədricən genişlənərək və qalınlaşaraq sonda qalınlığı 3,5 sm olan kərt formaında tamamlanır. Onların ağzının kənarı antik və orta əsrlərdə geniş yayılmış çölmək tipli qablara bənzəyir. Fikrimizcə, qabın ağzının kənarının bu cür kərt-kəmər formasında tamamlanması onun görkəmini yaxşı eləməklə yanaşı həm də, əşyanın möhkəmliyinə xidmət edir. Xatırladaq ki, bu tip qabların fraqmentlərinə də tez-tez təsadüf olunur. 4b və 5b kvadratlarında isə bu tip qablara aid çoxsaylı fraqmentlərə təsadüf olunub. Onların bir qisminin saxsısı sarı, bir qismininki isə qırmızı rəngdədir. Hər iki nümunəyə aid fraqmentlərdən bəzilərinin üzərində bir neçə yerdə təmir məqsədilə açılmış deşiklər var. Həmin qablardan biri bərpa edildi. Onun ölçüləri belədir: ağzının diametri 54, hündürlüyü 48 sm-dir.

Maraqlıdır ki, istifadə zamanı sınmış və ya divarları çatlamış nümunələrin bir qismi deşici alətlə deşilərək ip və ya məftillə bərkidilib. III qazıntıdan məlum olan bu cür tapıntılardan birinin üzərində hətta məftil parçası da aşkar edilib. Adətən, bu cür qablar təmir edildikdən sonra calaq yerlərinin üzəri əhəng məhlulu ilə örtülüb.

III qazıntı sahəsindən tapılan şirsiz qabları səciyyələndirən əsas əlamətlər aşağıdakılardır: Əksər hallarda məmulatın gili yaxşı təmizlənməyib, həll yoğrulmayıb, başdanso-

vurdu hazırlanıb, demək olar ki, heç birinin səthinə bişirilməzdən əvvəl sığal çəkilməyib. Ona görə də bu nümunələrin səthi hamar deyil, oturacaqlarının kənarı bu və ya digər dərəcədə deformasiyaya uğrayıb. Bu əlamətlər bütövlükdə şirsiz keramika istehsalındakı tənəzzüldən xəbər verir. Bununla belə bəzi qab nümunələri vardır ki, onlar yeni tip kimi dəyərləndirilə bilər. Yəni, əvvəlki dövrlərdə bu tip qablara demək olar ki, rast gəlinmir. Dibçək qabına bənzər nümunələr buna misal ola bilər. Bəzi qablar isə forma cəhətdən müəyyən dəyişikliklərə məruz qalıb. Xüsusilə də səhəng, bardaq və çıraqların ağz və boğaz hissəsində forma dəyişikliyi müşahidə olunur. Diqqəti cəlb edən məqamlardan biri də bu dövrdə sınmış qabların daha çox təmir olunmasıdır. Bunlar həm lokal, həm də xronoloji əlamətlər kimi səciyyələndirilə bilər.

Tapıntılar içərisində qəlyanlara da tez-tez təsadüf olunur. III qazıntı sahəsindən tapılmış nümunələr forma etibarı ilə bir-birinə bənzəsələr də həcm etibarı ilə fərqlənirlər. Digər abidələrdən məlum olan XVIII əsr nümunələrindən fərqli olaraq Ağsu qəlyanları içərisində nisbətən iri və kobud nümunələrə daha tez-tez təsadüf olunur. Bunlar isə iki məqamdan xəbər verir: Birincisi, XVII əsrlə müqayisədə XVIII əsrdə şəhər əhalisi içərisində tütün məmulatından istifadə edənlərin sayı artıb. Ikincisi, XVII əsrdə tütündən daha çox ancaq varlı silkə mənsub insanlar istifadə edirdisə, XVIII əsrdə artıq əhalinin nisbətən daha geniş təbəqələri bu vərdişin təsirinə düşüb. Tapıntılar içərisində kobud nümunələrin artması fikrimizcə həm də cəmiyyətdə qəlyanların istehsalına olan sosial sifarişin miqyasının artmasının göstəricisi kimi izah edilə bilər.

Şirli saxsı məmulatı. Bu tip əşyalar əsasən müxtəlif həcmli kasa, piyalə və boşqab tipli qablardan ibarətdir. Bunlar da daha çox anqob naxışlı nümunələrdən və səthi şabalıdı rəng boya ilə saya örtülmüş nümunələrdən ibarətdir. Tək-tək hallarda yaşıl, göy və firuzəyi rənglərlə saya şirlənmiş kasa və boşqab nümunələrinə də təsadüf olunur. Diqqəti cəlb edən odur ki, şirsiz qablardan fərqli olaraq bu tip qablar texniki və texnoloji baxımdan daha mükəmməl hazırlanıblar. Yəni, onların gili müxtəlif qatışıqlardan diqqətlə təmizlənib, palçığı həll yoğrulub və usta tərəfindən kifayət qədər peşəkar səviyyədə hazırlanıb. Bu tapıntılar Azərbaycanın digər şəhərlərindən məlum olan XVII əsrə aid analoji nümunələrlə müqayisədə həm texniki və texnoloji, həm də dekor rəngarəngliyi baxımından daha yetkin istehsalat mədəniyyəti nümunələri kimi dəyərləndirilə bilər. Anqob naxışlı kasaların əksəriyyətinin dib hissəsində qalın konsentrik dairə içərisində insan əlinə bənzəyən təsvirləri var. Bu təsvirləri palıd yarpağına da bənzətmək olar. Qabların ağzının kənarı boyunca isə daha çox anqob ləkələr formasında olan yayğın təsvirlərdən istifadə olunub.

Anqob naxışlı kasa və boşqablar çox da hündür olmayan dairəvi oturacağa malikdir. Bu tip qabların dib hissəsi qabın divarlarının qeyri hissələri ilə müqayisədə daha nazikdir. 3b kvadratından tapılmış anqob naxışlı kasa (oturacağının diametri 5,5, ağzının diametri 13, hündürlüyü 6 sm-dir) bu tip qablar üçün



Qazıntı sahəsindən görüntü



xarakterik nümunə hesab edilə bilər. 3b kvadratından məlum olan başqa bir kasa da (oturacağının diametri 7,5, ağzının diametri 12 sm-dir) anqob naxışlı qablar üçün xarakterik nümunə kimi təqdim oluna bilər.

Forma və həcm etibarı ilə anqob naxışlı nümunələrdən demək olar ki, fərqlənməyən saya şirli kasa və boşqablar Ağsu materialları içərisində ən çox diqqəti cəlb edən və kifayət qədər tez-tez tapılan şirsiz saxsı məmulatı nümunələridir. Bu nümunələr dulusçu-ustalar tərəfindən xüsusi zövqlə hazırlanıb. Onların forma kamilliyi, hazırlanması, şirlənməsi və bişirilməsi ilə bağlı texnoloji proseslərin mükəmməl səviyyədə icra olunması bu tip məmulatın istehsalı ilə bilavasitə təcrübəli və peşəkar ustaların məşğul olduğundan xəbər verir.

Çox da hündür olmayan dairəvi oturacaq, dib hissəsinin son dərəcə nazik olması, həcm etibarı ilə nisbətən dayaz və az tutumlu olması bu qabların əsas səciyyəvi xüsusiyyətlərindəndir. Bu nümunələrin əksəriyyəti açıq şabalıdı, yaxud da sarımtıl rəngdədir. Bir çoxunun anqob astarı yoxdur. Yəni, qab səliqə ilə hazırlandıqdan, üzərinə sığal çəkildikdən sonra həm daxili, həm də xarici səthinə şəffaf şir örtüyü vurulub.

Bu tip qabların əksəriyyəti fraqmentlər halında tapıldığından onların ölçülərini dəqiqləşdirmək bir qədər çətinlik doğurur. Bununla belə oturacağının diametri 7 sm, hündürlüyü 4,5 sm olan nümunələrə nisbətən daha çox təsadüf olunur. 8a kvadratından tapılan bir ədəd boşqab bu növ qablar üçün səciyyəvi nümunə hesab edilə bilər. Daxili və xarici səthi sarımtıl şirlə saya örtülüb. Qabın ölçüləri belədir: hündürlüyü 3,5, oturacağının diametri 10, ağzının diametri 23 sm-dir. Çox da hündür olmayan dairəvi oturacağa malikdir. Dib hissəsi qabın divarları ilə müqayisədə nazikdir.

Bu qəbildən olan nümunələrin dulusçu ustalar tərəfindən xüsusi zövqlə hazırlanması onlardan daha çox şəhərin elitar təbəqəsinin məişətində istifadə olunduğunu deməyə əsas verir.

İnşaat keramikası. Bu qəbildən olan nümunələrə III qazıntı sahəsində nisbətən az təsadüf olunub. Məsələn, cəmisi bir ədəd su tüngü tapılıb. 3b kvadratında qeydə alınan bu nümunə nisbətən kobud hazırlanıb. Əvvəlki əsrlərə aid analoji nümunələrdən fərqli olaraq onun geydirilmək üçün olan kərt yeri yoxdur. Həmin tüngün ölçüləri belədir: Salamat qalmış hissədə uzunluğu 21, ağzının diametri 22, divarının qalınlığı 1,5 sm-dir. Dulus dəzgahında hazırlanıb. III qazıntı sahəsinin ayrı-ayrı kvadratlardan tapılmış daha bir neçə ədəd su tüngü fraqmentlərdən ibarət olduğundan onların ölçülərini müəyyənləşdirmək mümkün olmadı.

Bişmiş kərpiclər III qazıntı sahəsində nisbətən daha tez-tez tapılan inşaat keramikası nümunəsidir. Onlar ölçü etibarı ilə müxtəlifdirlər. Yaxşı bişirilmədiyindən asanlıqla aşınırlar.

Bişmiş kərpic nümunələrinin demək olar ki, hamısı əraziyə səpələnmiş vəziyyətdə aşkar edilib. Yalnız bəzi yerlərdə kərpicdən döşəmə qalıqları qeydə alınıb. Təbiidir ki, bişmiş kərpicdən daha çox tikintidə istifadə

olunub. Lakin tikintidə istifadə olunmuş kərpiclər yerli sakinlər tərəfindən zaman-zaman bütünlüklə sökülüb aparıldığından hələlik kərpic divarlara təsadüf olunmayıb. Xatırladaq ki, III qazıntı sahəsində hələlik tikinti qalıqlarının ancaq bünövrə hissələri aşkar olunub. Bünövrə tikintisində isə təbiidir ki, heç zaman kərpicdən istifadə olunmayıb.

Bütün bunlara baxmayaraq ərazidə dağınıq vəziyyətdə olsa belə çoxsaylı, həm də müxtəlif ölçülü bişmiş kərpic nümunələrinin tapılması şəhərin tikintilərində bu qəbildən olan materiallardan da geniş surətdə istifadə olunduğunu düşünməyə əsas verir.

Maraqlıdır ki, III qazıntı sahəsindən bir ədəd belə kirəmid nümunəsi tapılmayıb. Amma bu o demək deyildir ki, Ağsu şəhərində örtük vasitəsi kimi kirəmitlən istifadə olunmayıb. Ola bilsin ki, yardımçı binaların üstü kirəmitlə örtülməyib. Artıq yuxarıda qeyd olunduğu kimi, III qazıntı sahəsində aşkar olunan tikililərin demək olar ki, hamısı yardımçı tikililər qrupuna aiddir və bu səbəbdən də orada kirəmid nümunələrinin tapılmaması məntiqi baxımdan da anlaşılan məsələdir.

Eyni sözləri rəngli kaşılar barəsində də deməmək olar. Yəni, digər orta əsr şəhərlərində kifayət qədər tez-tez təsadüf olunan rəngli kaşı nümunələrinə III qazıntı sahəsində hələlik təsadüf olunmayıb. Şübhə yoxdur ki, şəhərin möhtəşəm tikililərinin inşa olunduğu kvadratlarda, habelə dulus məmulatı istehsal edilən ərazilərdə bu qəbildən olan nümunələr də tapılacaqdır.

Fayans və farfor məmulatı. Bu qəbildən olan tapıntılara da kifayət qədər tez-tez təsadüf olunur. Əsasən kasa, kiçik piyalə və boşqab tipli qablardan ibarət olan bu əşyalara və onlara aid fraqmentlərə qazıntı sahəsinin demək olar ki, bütün kvadratlarında təsadüf olunur. Gili kövrək olduğundan fayans qabların demək olar ki, hamısı xırda hissələrə parçalanıb və bu səbəbdən də onların formasını və ölçülərini dəqiqləşdirmək mümkün olmamışdır. Bəlli olan odur ki, bu qabların demək olar ki, hamısının həm daxili, həm də xarici səthi başlıca olaraq kobalt şiri ilə işlənmiş zəngin həndəsi, nəbati və mürəkkəb sxematik təsvirlərlə bəzədilib. Təsvirlərin sıxlığı, onların bir-biri ilə peşəkar səviyyədə uzlaşdırılması buişin xüsusi hazırlığa malik rəssam-ustalar tərəfindən icra olunduğundan xəbər verir.

Məlum olduğu kimi, Azərbaycanın orta əsr şəhərlərindən tapılan fayans məmulatının əksəriyyəti Şərq ölkələrindən gətirilmiş nümunələrdir. Bu cəhətdən Iranın Rey, Kaşan, Sultaniyyə şəhərlərində istehsal olunmuş nümunələr xüsusilə çoxluq təşkil edir. Ağsu şəhər yerində aparılan qazıntılar zamanı da belə nümunələrə təsadüf olunub. Məlum olduğu kimi, həmin məmulat Azərbaycana ticarət və ya mədəni əlaqələr yolu ilə daxil olmuşdur. Diqqəti çəkən mühüm məqamlardan biri budur ki, Ağsuda tapılan və çox ciddi istehsalat qüsurları ilə müşaiyət olunan fayans məmulatı nümunələrinin xarici ölkələrdən gətirildiyini düşünmək əsla düzgün olmazdı. Fikrimizcə, bu cür nümunələrin bilavasitə yerli istehsal məhsulu olduğu əsla şübhə doğurmur.

Gilinin müxtəlif qatışıqlardan yetərincə təmizlənməməsi, hazırlanarkən, şirlənərkən

və bişirilərkən texnoloji qüsurlara yol verilməsi onların elə ilk baxışdan xarici bazar üçün o qədər də cəlbedici məmulat olmadığından xəbər verir. Başqa sözlə, bu nümunələrin bilavasitə yerli istehsala aid olduğu göz qabağındadır. Deyilənlərə onu da əlavə edək ki, tapılmış bəzi istehsalat çıxarlarının da məhz fayans tipli qablara aid olması ehtimalı da nəzərdən qaçırılmamalıdır. Bunlar isə o deməkdir ki, XVIII əsrdə Ağsuda yerli ustalar şirli və şirsiz saxsı məmulatı ilə yanaşı, həm də fayans qablar istehsalı ilə məşğul olublar.

Xatırladaq ki, Azərbaycanın orta əsr şəhərlərində fayans məmulatı istehsalına dair ehtimallar hələlik elmi cəhətdən sübuta yetirilməmişdir. Ağsu qazıntılarından məlum olan bəzi nümunələrin isə bilavasitə yerli istehsala aid olmadığını söyləmək üçün heç bir ciddi elmi əsas yoxdur.

Bütün bunlar nəticə olaraq onu deməyə əsas verir ki, XVIII əsrin ortalarında Ağsu şəhərində dulusçu – ustalar sosial sifarişə uyğun olaraq həm də rəngarəng çeşidli fayans məmulatı nümunələri istehsalı ilə məşğul olmuşlar. Materialların təhlili göstərir ki, yerli ustalar ilk vaxtlar bu qəbildən olan əşyaları daha çox xaricdən gətirilən nümunələrə bənzətmək yolu ilə istehsal etməyə üstünlük vermişlər. Istehsalın həcmi və ustaların peşə vərdişləri artdıqca tədricən çeşid və dekor rəngarəngliyi də artıb. Qabların bədii cəhətdən bəzədilməsində yerli flora və faunaya aid təsvirlərin tədricən artması da bu fikri bir laha təsdiqləyir.

III qazıntı sahəsindən tapılmış gətirilmə məmulat içərisində Çin və Avropa istehsalı olan farfor qablar da çoxluq təşkil edir. Bunlar əsasən kiçik ölçülü kasa, piyalə və qədəh tipli qablardır. Onların əksəriyyətinin xarici səthi tutqun mavi rəngdə saya şirlənib. Daxili səthində isə ağ fonda kobalt şiri ilə tək-tək qönçə, yaxud da yarpaq-tumurcuq təsvirləri ilə bəzədilib. Oturacağının diametri 5, ağzının diametri 10, hündürlüyü 6 sm olan kiçik piyalə bu tip qabların ən xarakterik nümunələri kimi səciyyələndirilə bilər (inv.№ 125). Nəfis şəkildə hazırlanan, xarici səthi tutqun hava rəngində saya şirlənən, daxili səthinə ağ fonda kobalt şiri ilə nəbati təsvirləri olan bu tip qablara Ağsu qazıntılarında tez-tez təsadüf olunur. Əsasən varlı təbəqənin kifayət qədər dəbdəbəli həyat tərzinin göstəricisi olan bu qabların ticarət yolu ilə daha çox Çin, Rusiya, Almaniya və Britaniyadan gətirildiyi ehtimal edilir.

Maraqlıdır ki, yerli ustalar xaricdən gətirilən bu tip qablara bənzər məhsullar istehsalına da təşəbbüs ediblər. 6-cı kvadratdan tapılan kiçik və nazik divarlı farfor piyalə (inv.№-137) buna nümunə ola bilər. Hündürlüyü 4, ağzının diametri 7,5, oturacağının diametri 3,8 sm olan bu əşyanın şirlənməsində texnoloji qüsurlar var. Xüsusən də qabın alt hissəsinin anqob və şir örtüyü kobuddur. Bu nümunə göstərir ki, yerli ustaların ilk vaxtlar istehsal etdiyi farfor nümunələrinin keyfiyyəti hələ ki, tələb olunan səviyyədə olmayıb.

Bütün bunlar isə Ağsu şəhərinin dünyanın bir çox mədəniyyət mərkəzləri ilə intensiv ticarət və mədəni əlaqələrinin olduğundan xəbər verir.

Sümük məmulatı. Arxeoloji axtarışlar zamanı III qazıntı sahəsində xeyli miqdar

sümük məmulatı aşkar edilib. Bunlar əsasən müxtəlif heyvanlara məxsus kəsilmiş vəziyyətdə olan buynuz və ya lülə sümükləridir. Onların bir qismi istifadə zamanı kəsilib atılmış hissələrdir. Bir qismi isə müxtəlif növ məmulat istehsalı üçün tədarük edilmiş hazır materialdır. Qazıntı sahəsinin ayrı-ayrı kvadratlarında sümük məmulatına xüsusilə çox təsadüf olunmuşdur. Məsələn, 7a kvadratında, misgər emalatxanası ilə 1 saylı ev-otaq arasındakı ərazidən çoxlu miqdar kəsilmiş və yonulmuş sümük material aşkar edildi. Fikrimizcə, həmin yerdə sümük məmulatı istehsalı ilə məşğul olan ustaya məxsus emalatxana olub.

Ondan bir qədər cənubda, daha doğrusu, 8b kvadratının cənub-qərb küncündə isə külli miqdar sümük qırıqlarının töküldüyü quyu-çökəklik aşkar olundu. Cörünür, uzun illər ərzində sümükişləmə sənəti ilə məşğul olan usta istehsal tullantılarını məhz həmin çökəkliyə töküb.

Şüşə məmulatı. III qazıntı sahəsində aparılan tədqiqatlar rəngarəng çeşidli şüşə məmulatı nümunələrinin tapılması ilə də yaddaqalan oldu. Bunlar əsasən qara və göy rəngli şüşədən istehsal olunmuş əşyalardır. Tapıntılar isərisində şəffaf nümunələrə də tez-tez təsadüf olunur. Xırda qədəh tipli şüşə qab qırıqları çoxluq təşkil edir. Tapıntılar içərisində zərli şüşə nümunələri də vardır. Daha çox diqqəti cəlb edən isə qara rəngli qalın divarlı şüşə qablardır. Belə qablardan biri 5b kvadratından tapılmış nisbətən iri ölçülü balon tipli qabdır. Gövdə hissəsi düzbucaqlı formada olan iri həcmli şüşə qablar da maraq doğurur. Bu qablar gövdə ilə müqayisədə dar və qısa boğaza malikdir. 8b kvadratından tapılmış bu tip qablardan birinin üzərində Londonda istehsal olunduğunu bildirən yazı var.

Buna bənzər qablara məxsus fraqmentlər 1a, 2b və 3b kvadratlarından da tapılmışdır. Bu nümunələr onu deməyə əsas verir ki, Ağsu orta əsr şəhər yerindən tapılmış şüşə qabların xeyli hissəsi ticarət və mədəni əlaqələr yolu ilə xarici ölkələrdən gətirilib. Lakin elə tapıntılar da vardır ki, onlara istinadən yerli ustaların da şüşə məmulatı istehsalı ilə məşğul olduğunu söyləyə bilərik.

Məsələn, 7a kvadratından tapılan darboğazlı qabın ağız hissəsi istehsal prosesində deformasiyaya uğrayaraq çıxar vəziyyətə düşüb. Təbiidir ki, texnoloji cəhətdən qüsurlu olan belə bir qab kənar yerlərdən gətirilə bilməzdi. Deməli, həmin əşya yerli istehsal məhsuludur. Elə həmin kvadratdan tapılan şüşə şlakı da yerli istehsalın olduğunu təsdiqləyən ciddi dəlil kimi dəyərləndirilə bilər. Tapıntılar içərisində bir neçə ədəd lampa tipli əşyalar, pastadan hazırlanmış düymə və muncuqlar da vardır.

Bütün bunlar onu göstərir ki, XVIII əsrdə Ağsu sakinlərinin məişətində şüşə qablardan, habelə şüşədən hazırlanmış bəzək əşyalarından geniş istifadə olunmuşdur. Avropa şəhərlərində, xüsusilə də Britaniyanın müvafiq istehsal mərkəzlərində hazırlanmış nəfis və bahalı şüşə məmulatı nümunələrinin tapılması Ağsu əhalisinin mədəni səviyyəsinin və sosial drumunun kifayət qədər yüksək olduğundan xəbər verir.





Bir çox digər nümunələr də vardır ki, onların yerli ustalar tərəfindən istehsal olunduğu əsla şübhə yaratmır.

Sikkələr. III qazıntı sahəsindən digər maddi mədəniyyət nümunələri ilə yanaşı çoxsaylı gümüş və mis sikkələr aşkar edilmişdir. Ağsu şəhər yerində aşkar edilən sik - kələr tək və dəfinə şəklində tapılmışdır. Təbiidir ki, digər tapıntıların dövrünün təyin edilməsi, dövrün sosial-iqtisadi və siyasi həyatına, beynəlxalq ticarət yollarının istiqamətinə aydınlıq gətirmək baxımından numizmatik materialların rolu əvəzsizdir. Tapılanlar içərisində xeyli miqdar mis lövhə - təbəqələr də var ki, onların da matriçalardan olduğu təsdiq edildi. III qazıntı sahəsindən tapılan bəzi sikkələrin bir üzünə dairəvi və yarpaq çərçivəyə malik, daxilində "Lahic" və ya "Məhəmməd" sözləri olan damğalar vurulmuşdur. Həmin sikkələrdəki "Lahic" kəlməsi fikrimizcə zərbxananın adını bildirir. Lahıc zərbxanasının adına indiyənə qədər yalnız Ağsu pullarında rast gəlinmişdir. Bu, XVIII əsrin ortalarında Şirvan hakimi olmuş Zərnavalı Hacı Məhəmməd Əli ilə bağlıdır. Məlumdur ki, lahıclı ustalar bütün dünyada qızıl, gümüş, xüsusən də mis məmulatları istehsalı ilə tanınmışlar. Onların düzəltdiyi zərgərlik məmulatları dünya muzeylərini bəzəyir. Məhz zərbxananın işinin təşkilində Zərnavalı Hacı Məhəmməd Əli lahıclı ustalara həvalə etmiş, onun ilk sikkələri də Lahıcda vurulmuşdur.

XVIII əsrin ortalarında, daha doğrusu Nadir şahın (1736-1747-ci illər) ölümündən sonra Azərbaycan ərazisində yaranmış xanlıqlar öz sikkələrini tədavülə buraxmağa başlayırlar. Siyasi və iqtisadi cəhətdən cox da, güclü olmayan bu dövlətlər ehtiyatlı siyasət yürüdərək hələlik öz adlarını sikkələrə vurmur, başqa sözlə anonim sikkələr zərb edirdilər. Mis sikkələrin üzərində aversdə qılınc, (Zülfüqar) it, at, tovuzquşu, balıq, xoruz, ördək, şir, ilan, əjdaha, fil, meymun, bitki və.s zərb edilirdi. Sikkənin reversində (tərs üzü) zərbxananın adı, "fulus" sözləri verilirdi.

Lahıc" damğası sikkələrin Lahıc zərbxanasında zərb edildiyini bildirir. Damğaların formaca bir-birinə çox oxşaması və eyni növ sikkələr üzərinə vurulması, onların eyni zərbxanaya aid olduğunu göstərir. Zərb edilmiş uzunsov mis sikkələrin metal tərkibi də eynidir. (Misin tərkibində dəmir olduğundan, pas çıxır). Eyni tipli Köhnə Şamaxı sikkələrindən fərqli olaraq, bu sikkələrdə qılınc iki haçalı (Zülfüqar) formada verilmişdir. Sikkələrin arxa üzündə "Şamaxı zərb"və ya "zərb fulus" sözləri verilib. Sikkənin aversinin fərqli olması (1748-1763-cü illər) Ağsu hakiminin, Sərdar Hacı Məhəmmədəli xan ibn Sofu Nəbi Zərnavalının, Şamaxı hakimləri Xancobanlı Allahverdi bəy Sərkərin oğlanları Məhəmməd Səid və Agası xandan fərqli olaraq şiə olması ilə əlaqədardır.

Onu da qeyd etməliyik ki, xancobanlı Məhəmməd Səid və Agası xan bu vəzifəyə Kərim xan Zənd tərəfindən təyin edilmişdir. Bu səbəbdən bir sıra Şamaxı pullarının üzərində "Ya Kərim!" şüarı verilirdi.

Ağsu sikkələri üzərində verilmiş "Məhəmməd" damğası Hacı Məhəmmədəli xa-

nın adı ilə bağlıdır. Burada da onun ehtiyatlı siyasət yürüdərək tam adını və epitetlərini göstərməməsi, dövrün siyasi hadisələri ilə bağlıdır. Buna oxşar hadisələr Kərim xan Zəndin sikkələrində "Ya Kərim" (Ya Allah), Ağa Məhəmməd xan Qacarın özünü 1796-cı ildə şah elan edəndən sonra Gəncədə zərb etdirdiyi sikkələrdə "Ya Məhəmməd" şüarlarının verilməsində öz əksini tapır. Adı çəkilən sikkələrin birinin aversində "Lahıc", digər üzündə isə "Məhəmməd" damğası vurulmuşdur. Bu sikkələrin üzərində tarix vurulmaması onların buraxılış ilinin təyin edilməsini çətinləşdirir. Fikrimizcə bu sikkələr Nadir xanın ölümündən sonra (1747-ci il) Məhəmməd Səid xanın Ağsunun işğalına qədər (1763-cü ildə) tədavülə buraxılımışdır.

Ağsu qazıntıları zamanı eyni sahədən 20-yə qədər gümüş sikkə aşkar edilmişdir. Həmin sikkələr Şamaxı və Gəncə zərbxanalarında, Nadir şah, Kərim xan Zənd və anonim buraxılımış abbası və şahılardan ibarətdir. Şamaxıda zərb edilmiş sikkələrin aversində "Ya, sahib zaman", reversində "Şamaxı zərbi " və buraxılış ili verilib (1774-1775)-(1777-1778). Gəncədə zərb edilmiş sikkələrin aversində "Zamanın sahibi imamın sikkəsi günəşi və ayı qızıla və gümüşə çevirirdi" və ya "Ya sahib əz-Zaman imamın sikkəsi günəşi və ayı qızıla və gümüşə çevirirdi" sözləri yazılıb. Bu sikkələr hicri tarixi ilə 1180, 1190, 1195-ci illərdə (1766-1767, 1776-1777, 1780-1781-ci illər) zərb edilmişdir. Aşkar edilmiş abbasıların yuxarı çəkisi 4,1 qr, aşağı çəkisi 1,85 qr təşkil edir. Şahıların yuxarı çəkisi 1,5 qr, aşağı çəkisi 1,1 qr təşkil edir. 1187-ci ildə (1773-1774) Gəncədə zərb edilən və çəkisi 3,8 qr olan abbasının aversində "Nadir/əs-Sultan" sözü zərb edilib. Sikkənin reversində "1187 /Gəncə/ zərbi"sözü zərb edilib.

XVIII əsrin 60-cı illərinin sonlarında zərb ili və yeri pozulmuş anonim abbasının aversində "Ya Kərim/əs-Sultan" sözü verilib. Sikkənin reversində "Ləilahəilləllah, Məhəmmədən Rasulallah, Əliyyən Vəliyullah" kəlamı zərb edilib.

III qazıntı sahəsindən 400-dən artıq mis sikkə aşkar edilmişdir. Bu sikkələr tək və dəfinə şəklində aşkara çıxarılmışdır. Aşkar edilimiş mis sikkələr arasında ən qədiminin XIII əsrin ortalarına aid olan Şivanşah II Axsitanın (1243-1260-cı illər) Şamaxıda zərb etdirdiyi mis fulusdur (çəkisi 1,6 qr). Sikkənin aversində iki sətirdə «Kaan əl-Adəl» sözü verilib. Sətirlərin arasında iki tərəfli üç diş zərb edilib. Sikkənin reversində müsəlman simvolikası "Ləilahəilləllah, Məhəmmədən Rasulallah" sözləri verilib. Sikkənin üzərində "Kaan əl-Adəl" kəlməsi Şirvanşahlar dövlətinin Çingiz xanın imperiyasına tabe olduğu - nu göstərir. Professor Y.A.Paxomov bu sikkələri şərti olaraq "kaanik" adlandırır. Bu tip sikkələr Hulakü xanın əmri ilə II Axsitanın öldürüldüyü vaxta qədər (1260-cı il) Şamaxı zərbxanasında zərb edilirdi. Sikkənin bu ərazidə tapılması, onun bura təsadüfən düşməsi ilə əlaqədar ola bilər. Fulus bura köçüb gəl - miş Köhnə Şamaxı sakinləri tərəfindən gətirilə bilərdi və ya Ağsu şəhərinin yerində mövcud olmuş daha qədim yaşayış məskəninin sakinlərinə məxsus ola bilərdi.

Şamaxı zərbxanasının mis sikkələri öz forması və çəkisinə görə müxtəlifdir. Sikkələrin bir hissəsi düzgün diametrə malikdir. Bu sikkələri çəkisinə görə üç növə bölmək olar:

I-ci tip sikkələr (yuxarı çəkisi 18,0 qr, aşağı çəkisi 14,6 qr)

II-ci tip sikkələr (yuxarı çəkisi 12,1 qr, aşağı çəkisi 8,6 qr)

III-cü tip sikkələr (yuxarı çəkisi 6,7 qr, aşağı çəkisi 3,9 qr)

IV- cü tip sikkələr(yuxarı çəkisi 3,5 qr, aşağı çəkisi 2,0 qr)

Uzunsov formaya malik fulusları iki tipə bölmək olar:

I-ci tip fuluslar enli, qurtu nazik, az çəkili,

II-ci tip fuluslar ensiz, qalın qurtlu və ağır çəkili zərb edilirdilər.

Hər iki tip fuluslarda aversdə nəbati naxışlarla əhatələnmiş adi qılınc və ya zülfüqar, reversdə "Şamaxı/zərb" və ya "fulus/zərb" "Şamaxı/fulus" sözləri verilirdi. Fikrimizcə, üzərində «Zülfüqar» sözü olan fuluslar Ağsu zərbxanasında kəsilmişdir. Bunu I-ci qazıntı sahəsində aşkar edilmiş, üzərində «Zülfüqar» olan yeni kəsilmiş sikkələr də təsdiq edir. Yuxarıda qeyd etdiyimiz kimi bu sikkələrin bəziləri üzərinə zərb vurulmamış və ya bir üzünə zərb vurulmuşdur (it, at, buğa, xoruz, şir, dovşan, ilan, əjdaha).

Sikkələr üzərində heyvan təsvirlərinin verilməsi qədim türklərin heyvani təqvimi ilə bağlıdır. Numizmatika ilə məşğul olan bir qrup alimlərin fikrincə, fulusların üzərindəki canavar it ilini, ördək və tovuzquşu isə xoruz ilini bildirirdi.

Ə.Rəcəblinin fikrincə ilan yerinə onun ekvivalenti olan əjdaha təsviri vurulurdu. Xatırladaq ki, qədim türk təqvimində ilan ili ilə yanaşı, əjdaha ili də mövcud idi və adı çəkilən sikkə məhz əjdaha ilində zərb edilmişdir.

Aşkar edilmiş mis fuluslardan birinin aversində üzü sola şir təsviri verilmişdir (çəkisi - 8,8 qr). Belinin üzərindən günəş boylanır. Zərrab günəşi obrazlı təsvir edərək ona göz, qaş və burun əlavə etmişdir. R.Pulun fikrincə şir və günəş təsvirinə ilk dəfə Keyxosrovun pullarında rast gəlinir. Sikkənin reversi oxunmur. Fikrimizcə, bu sikkə XVI-XVII-ci əsrlərdə Şamaxıda zərb edilmişdir.

Aşkar edilmiş sikkələr arasında ehtimalımıza görə Gəncə zərbxanasında buraxılan və aversində fil üzərində oturmuş və əlində əsa tutmuş insan təsviri olan fuluslardır. Sikkənin reversində "Fulus" sözü zərb edilib. Həmin sikkələri çəkisinə görə iki tipə bölmək olar:

I-tip sikkələr 18,6 qr çəkiyə malikdir.

II-tip sikkələr 8,6 qr çəkiyə malikdir.

Hər iki tipdən olan sikkələr üzərində olan təsvirlər demək olar ki, eynidir. Xatırladaq ki, üzərində fil təsviri verilmiş fuluslar Nadir şahın 1737-1739-cu illərdə Hindistana yürüşündən sonra tədavülə buraxılmışdır. Professor Y.A.Paxomovun fikrincə bu sikkələr Gəncə zərbxanasında zərb edilmişdir. Fikrimizcə, bu sikkələr Gəncə ilə yanaşı, başqa zərbxanalarda da buraxıla bilərdi. Təsadüfi deyildir ki, bu tip sikkələr Şamaxı ərazisində də aşkar edilmişdir. Belə ki, 2009-cu ildə arxeoloq t.e.n İdris Əliyev tərəfindən (Şamaxıda aşkar edilmiş) bizə təqdim edilmiş fulus üzərində fil təsviri var idi.

Bir neçə mis sikkənin aversində balıq təsviri, reversində isə fulus sözü zərb edilib. Bu sikkələr çəkisinə görə iki tipə bölünür:

I tip sikkələr 17,0 qr. çəki ilə zərb olunurdu.

II tip sikkələr 5,0 qr. çəki ilə zərb olunurdu.

Sikkələr üzərində zərb yeri və tarix yoxdur.

Qazıntı sahəsindən Qarabağ hakimi Pənahəli xanın (1747-1763 ci illər) Şuşada zərb edilmiş mis sikkələri aşkar edilib (cəkisi 3,5; 4,4). Sikkəllər anonim zərb edilmişdir və tərəfimizdən iki tipə bölünmüşdir:

I tip sikkələrin aversində nöqtəvari və düzxətli çərçivənin daxilində Pənahəli xanın tuğrası verilib, sikkənin reversində nöqtəvari və düzxətli çərçivənin daxilində “Pənahabad/zərb” sözü zərb edilib.

II tip sikkələrin aversi I tipdə olduğu kimidir, sikkənin reversində nöqtəvari və düzxətli çərçivənin daxilində “Pənahabad” sözü zərb edilib. Sikkələrin üzərində zərb tarixi oxunmur. Analoji sikkələr professor M.Ə.Seyfəddini tərəfindən çap edilmişdir.

III qazıntı sahəsindən 1772-ci ildə II Yekaterina tərəfindən Sankt-Peterburqda zərb edilmiş bir ədəd tunc sikkə də (5 kopeyka) aşkar edilib (çəkisi - 50,8 qr). Sikkənin aversində (əsl üzü) yuxarıda tac olan çələng verilib. Çələngin daxilində II Yekaterinanın venzeli (monoqramı), venzelin sağında və solunda”1772” zərb edilib. Sikkənin reversində Rusiya imperiyasının gerbi-ikibaşlı qartal təsvir edilib.

Sikkənin bura düşməsi rus generalı V.Zubovun 1796-cı ildə Şirvana yürüşü ilə əlaqədar ola bilər.

Ağsu orta əsr şəhər yerində aşkar edilmiş sikkələr əsasən XVII-XVIII əsrə aid səfəvi gümüş sikkələri, XVIII əsrə aid Nadir şah, Kərim xan Zənd, Ağa Məhəmməd Şah Qacar, habelə Şamaxı, Gəncə, Şəki, Qarabağ, Dərbənd, Quba hakimlərinin anonim gümüş, mis fulusları və rus sikkələrindən ibarətdir.

Beləlikə, numizmatik materiallar əsasında belə nəticəyə gəlmək olar ki, Ağsu şəhəri yazılı qaynaqlarda göstərdiyi kimi 1735-ci ildə salınsa da bu ərazidə ondan əvvəl də sosial-iqtisadi cəhətdən inkişaf etmiş yaşayış məskəni mövcud olmuşdur. Orada XVII əsrdə zərb edilmiş sikkələrin aşkarlanması faktı bunu təsdiq edir.

Ərazidə aşkar edilmiş ən gec sikkələr XVIII əsrin sonuna aid edilir.



Ağsu şəhər yerinin planı



Orta əsr Ağsu şəhərinin bərpa planı



Orta əsr Ağsu şəhərinin giriş qapısının bərpa  planı və kəsiyi



Xəndəyin və qala divarının kəsiyi

2010-cu ildə Agsu orta əsr şəhər (Xaraba şəhər) yerində aparılmış arxeoloji qazıntılar-dan (III sahə) görün-tülər






A-2010
KV.1





III qazıntı sahəsi. I kvadrat




III qazıntı sahəsi. 1a kvadratı




A-2010
25MART
KV.1A


A-20
KV.
10 20 30 40 50






III qazıntı sahəsi. II kvadrat




III qazıntı sahəsi. 2a kvadratı




A-2010
29MART
KV. 2A
40 50 60 70 80 90 00


A-20
29M
KV
10
20
30






III qazıntı sahəsi. 2b kvadratı




III qazıntı sahəsi. III kvadrat






A-2010
29 MART
KV.3A
10 20 30 40 50 60 70 80 90 00






III qazıntı sahəsi. 3a kvadratı




III qazıntı sahəsi 3b kvadratı
Müəllif Süleyman Allahverdiyev




A-2010
29 MART
Kv.3B








III qazıntı sahəsi. IV kvadrat




III qazıntı sahəsi. 4a kvadratı









III qazıntı sahəsi. 4b kvadratı




III qazıntı sahəsi. 5a kvadratı




A-2010
Kv 5A


A-2010
29MART
Kv.5B







III qazıntı sahəsi. 5b kvadratı




III qazıntı sahəsi. VI kvadrat








III qazıntı sahəsi. VII kvadrat




III qazıntı sahəsi 6a kvadratı
Müəllif Süleyman Allahverdiyev




A-2010
25 MART
Kv. БАВ








III qazıntı sahəsi. 6b kvadratı




III qazıntı sahəsi. 7a kvadratı (1 saylı otaq)




A-2010
Kv 7A








III qazıntı sahəsi. 8a kvadratı




III qazıntı sahəsi. 8b kvadratı




A-2010
Kv. 8B

# Arxeoloji tədqiqatlar

## nəticəsində tapılmış maddi mədəniyyət nümunələri








İnsan təsvirli mis bəzək əşyası




Mis bəzək əşyası



Heyvan təsvirli mis bəzək əşyası




Mis çarx




Mis məftil, lövhəcik və mis əşyanın bir hissəsi




Mis asmalar




Mİs halqalar




Mis cəftə




Mis isgənə




Mis düymələr




Mis qabın təsvirli hissələri



Mis məftil




Kiçik mis qab




Mis əşya və açarın bir hissəsi




Gümüş asma və mis bəzək əşyaları




Gümüş qolbaq




Mis qaşıq




Mis qəliblər (üst tərəfi)



Mis qəliblər (alt tərəfi)



Mis əşyanın bir hissəsi




Bıçağın mis dəstəyi




Dəmir nal və çəftələr




Dəmir əşyalar




Dəmir maşa, nal, cəftə ucu



Dəmir maşa




Dəmir ərsin






Dəmir nallar



Dəmir mismarlar



Dəmir mismarlar




Dəmir qayçı




Mis üsküklər




Dəmir disk




Dəmir deşici alətin ucu






Dəmir qəlib



İşlənməmiş dəmir lövhə



Daş qəlib



Daş qəlib



Dəmirçixanada istifadə olunmuş daş təknə



Dəmirçi dəzgahının bir hissəsi



Ocaq daşı kimi istifadə olunmuş təsvirli daş



Dəmirçi dəzgahının bir hissəsi



Su tüngü



Su tüngünün bir hissəsi



Dəmirçi dəzgahının bir hissəsi



Bişmiş kərpic



Boyaq küpü



Təsərrüfat küpü



Nehrə tipli qabın alt hissəsi




İri küpün alt hissəsi



Bardağın bir hissəsi



Səhəng tipli qabın bir hissəsi



Bardağın bir hissəsi


Bardağın ağız hissəsi


Bardağın ağız hissəsi



Lüləyli su qabı



Bardağın ağız hissəsi



Bardağın bir hissəsi



Silbic



Qazan qulpu



Qab qulpları



Fincan tipli qabın bir hissəsi



Qab qulpları



Qab qulpları



Çıraq



Çıraq



Çıraq



Çıraqlar




Çıraq



Piydan (çıraq)



Piydan (çıraq)



Piydan (çıraq)




Qəlyanlar



Qəlyan




Qəlyan




Aşsüzənin bir hissəsi




Qapaq




Bardağın bir hissəsi




Bardağın bir hissəsi



Səhəng tipli qabın bir hissəsi



Bardaq



Diskvari oturacağa malik fayans kasa parçası




Şirli sərpuşvari qapaq




Vaza parşası




Şirli qab qulpları və ağız hissələri




Şirli kasanın bir hissəsi




Şirli qabın oturacağı




Şirli boşqab




Şirli çırağın lüləsi




Fayans nəlbəki




Xarici səthi kobaltla zəngin sxematik təsvirlərlə sıx bəzədilmiş çini qabın parçası



Nəfis hazırlanmış farfor kasa




Kiçik çini piyalə




Kiçik farfor piyalə




Kiçik və nazik divarlı farfor piyalə




Fayans kasa parçaları




Dayaz kasa parçaları




Fayans qabın hissələri




Çini boşqabın kənarının parçaları




Fayans qabların ağız hissələri




Fayans boşqabın bir hissəsi




Fayans vazın oturacaq hissəsi





Londonda istehsal olunmuş şüşə butulka




Slindrik gövdəli (d - 17) qalın divarlı balana bənzər iri həcmli şüşə qab




Şüşə qabın oturacağı




Şüşə qabın fraqmentləri. Kvadrat formalı gövdəsi




10. Qalın divarlı şüşə qab. 23. İri balan tipli şüşə qabın  oturacaq hissısinin bir parçası




Şüşə qablara məxsus olan fraqmentlər




Şüşə qabların hissələri




-İri şüşə qabın qulpu



Möhür üzük. Qaşı üzərində ərəb dilində «Məhəmməd Əli Fatimə Həsən Hüseyn» sözləri yazılıb.




Sümük üskük,  sümük əşya, balıqqulağı və muncuqlar



Pasta düymələr




Xəncərin sümük dəstəyi




Sənətkarlıqda istifadə olunmuş heyvanın bud sümükləri




Tam işlənməmiş sümük əşya



Sənətkarlıqda istifadə olunmuş buynuzlar




№ 4
Mis fulus (anonim) Gəncə? Nadir
Qazıbəyi – XVIII əsr
Diametri - 26,0-27,0 mm
Çəkisi - 17,34 q
AV - Nöqtəvari və düzxətli çərçivənin daxilində “Zərb fulus”sözü zərb edilib.
RV - Nöqtəvari və düzxətli çərçivənin daxilində üzü sağa fil, filin üzərində əlində əsa tutmuş insan təsviri verilib.




№ 25
Mis fulus (anonim) Şamaxı (XVIII əsr)
Diametri - 17,0-29,0 mm
Çəkisi - 4,50 q
AV - İki düzxətli və nöqtəvari çərçivənin daxilində qılınc (zülfüqar) təsvir edilib. Qılıncın hər iki üzündə nəbati naxışlar verilib. Sikkənin mərkəzində dairəvi damğa vurulub. Damğada “Lahıc” sözü, üzü sola “tovuzquşu” təsviri verilib.
RV - Nöqtəvari və düzxətli çərçivənin daxilində “Şamaxı zərbi” sözü verilib.

 

№ 26
Mis-fulus (anonim)  Yeni Şamaxı (Ağsu) 1735-1763-cü illər
Diametri - 15,0-34,0 mm
Çəkisi - 16,44 q
AV - Uzunsov sikkənin mərkəzində iki haçalı “qılınc” (zülfüqar) təsvir edilib. Sikkənin yanında dördləçəkli gül təsvir edilib.
RV - Sikkənin daxilində “fulus” sözü zərb edilib.

 

№ 5
Mis fulus (anonim) Şamaxı
Diametri - 21,0-23,0 mm
Çəkisi - 4,28 q
AV - Nöqtəvari və düzxətli çərçivənin daxilində üzü sola baxan tovuzquşu təsviri verilib.
RV - Nöqtəvari və düzxətli çərçivənin daxilində “Şamaxı zərb” sözləri zərb edilib.




№ 6
Mis fulus (anonim) Şamaxı
Qazıbəyi
Diametri 25,0-26,0 mm
Çəkisi - 16,87 q
AV - Düzxətli və nöqtəvari çərçivənin içərisində saat əqrəbi istiqamətində balıq təsvir edilib.
RV - Nöqtəvari və düzxətli çərçivədə “Zərb fulus” sözləri zərb edilib.




№ 7
Mis fulus (anonim) Şamaxı (XVII əsr)
Diametri - 21,0-22,0 mm
Çəkisi - 8,77 q
AV - Üzü sola baxan şir, onun belinin üzərindən doğan qaş-gözlə günəş təsvir edilmişdir.
RV - Nöqtəvari çərçivənin daxilində ”fulus zərb” sözləri zərb edilib.



№ 1
Rus rublu (II Yekaterina), tunc, 1772-ci il, (5 kopeyka)
Diametri - 40,0 mm
Çəkisi - 50,84 q
AV - Çələngin yuxarısında tac, daxilində II Yekaterinanın venzeli. Venzelin ortasında “1772” yazılıb.
RV - Rusiyanın gerbi ikibaşlı qartal təsviri vardır.



№ 48
Mis qazıbəyi
Diametri – 20,0-21,0 mm
Çəkisi – 15,4 q
AV – Sikkənin daxilində ov üzərinə atılmış canavar təsvir edilmişdir.
RV – Sikkənin daxilində “Fulus” zərb edilib.




№ 51
Mis fels
Diametri – 19,0 mm
Çəkisi – 2,9 q
AV – Nöqtəvari və düzxətli çərçivənin daxilində qılınc və ətrafında nəbati naxışlar vurulub.
RV – Nöqtəvari və düzxətli çərçivənin daxilində “Şamaxı” zərb edilib.




№ 8
Mis fulus, Şamaxı
Diametri - 18,0-25,0 mm
Çəkisi - 4,36 q
AV - Dairəvi çərçivənin daxilində qılınc təsviri verilib.
RV - Dairəvi çərçivənin daxilində “Şamaxı/ zərb” sözləri zərb edilib.




№ 9
Mis fulus, Şamaxı
Diametri - 17,0-24,0 mm
Çəkisi - 4,14 q
AV - Düzxətli və nöqtəvari çərçivədə qılınc təsvir edilib.
RV - Düzxətli və nöqtəvari çərçivənin daxilində “Şamaxı/zərb/11..” zərb edilib.




№ 10
Mis, fulus, XVIII əsr, anonim
Diametri - 15,0-25,0 mm
Çəkisi - 5,0 q
AV - Nöqtəvari və düzxətli çərçivənin daxilində iki nəbati naxışın ortasında qılınc təsviri verilib.
RV - Nöqtəvari və iki düzxətli çərçivənin daxilində “Şamaxı/zərb” sözü zərb edilib.

 

№ 11
Mis fulus, anonim, Şamaxı (XVIII əsr)
Diametri - 28,0-18,0 mm
Çəkisi - 4,59 q
AV - İki düzxətli və nöqtəvari çərçivənin daxilində iki nəbati naxışın ortasında qılınc təsviri verilib.
RV - İki düzxətli və nöqtəvari çərçivənin daxilində “Şamaxı/zərb” sözü zərb edilib.

 

№ 13
Mis fulus, Şamaxı (XVIII əsr)
Diametri - 18,0-28,0 mm
Çəkisi - 5,40 q
AV - Nöqtəvari və iki düzxətli çərçivənin daxilində qılınc təsvir edilib.
RV - Nöqtəvari və iki düzxətli çərçivənin daxilində “Şamaxı/zərb” sözü zərb edilib.





№ 18
Mis fulus, anonim, Şamaxı (XVIII əsr)
Diametri - 15,0-30,0 mm
Çəkisi - 6,68 q
AV - İki düzxətli və nöqtəvari çərçivənin daxilində”qılınc”təsvir edilib. Qılıncın ətrafında nəbati naxışlar var.
RV - İki düzxətli və nöqtəvari çərçivənin daxilində “Şamaxı/zərb” sözləri zərb edilib.





№ 22
Mis fulus, Şamaxı, anonim, XVIII əsr
Diametri - 26,0-20,0 mm
Çəkisi - 6,47 q
AV - İki düzxətli və nöqtəvari çərçivənin daxilində “qılınc” (zülfüqar) təsvir edilib.
RV - İki düzxətli və nöqtəvari  çərçivənin daxilində “Şamaxı/zərb” sözləri verilib.